**ADA UNİVERSİTETİ**

**TƏHSİL FAKÜLTƏSİ**

**TƏHSİL ÜZRƏ MENECMENT**

# Ali təhsildə inklüziv təhsilin təşkili: Bakıdakı ATM-lərin nümunəsində keyfiyyət araşdırması

**Türya Heybətova**

**theybatova19065@ada.edu.az**

**Bakı, 2025**

**Ali təhsildə inklüziv təhsilin təşkili: Bakıdakı ATM-lərin nümunəsində keyfiyyət araşdırması**

**Türya Heybətova**

**Dissertasiya**

**MAGİSTR DƏRƏCƏSİ**

**üçün hazırlanıb.**

**ADA UNİVERSİTETİ**

**Oktyabr 2025**

**Dr. Abbas Abbasov, elmi rəhbər**

**TƏSDİQ EDİLMİŞDİR.**

SCHOOL OF EDUCATION

## HƏQİQİLİK BƏYANATI

Mən ADA-nın plagiat siyasəti ilə tanış olmuşam və təsdiq edirəm ki, bu dissertasiyanın məzmunu (Azərbaycanda ali məktəblərdə inklüziv təhsilin təşkili) mənim şəxsi işimdir və heç bir təsdiq olunmamış işi ehtiva etmir.

İmza:

Tarix:

Müəlliflik hüququ Türya Heybətovaya aiddir.

Müəllif hüquqları qorunur.

# Xülasə

## Ali təhsildə inklüziv təhsilin təşkili: Bakıdakı ATM-lərin nümunəsində keyfiyyət araşdırması

**Türya Heybətova**

**ADA Universiteti**

Müasir təhsil sistemində SİM insanlar bərabərlik və əlçatanlıq prinsipləri əsasında təşkil olunan təhsil sisteminin ayrılmaz hissələridirlər. Müasir təhsil modeli ənənəvi təhsil sistemi ilə müqayisədə sosial və fiziki problemlərdən asılı olmadan SİM tələbələrin digər tələbələrlə birlikdə təhsil alaraq inklüziv mühitin təmin edilməsini dəstəkləyir. SİM tələbələrin ali təhsilə əlçatanlığı ilə bağlı dövlət nizamnamələrinə baxmayaraq, onların təhsil alması üçün hələ də müəyyən maneələr mövcuddur. Azərbaycan Respublikası SİM tələbələrin təhsilə əlçatanlığını təmin etməyə çalışır. 2018-2024 inklüziv təhsil haqqında İkinci Dövlət Proqramının mərkəzində təhsil və sosial həyatda SİM tələbələr üçün inklüzivliyin inkişafı dayanır.

Ali təhsil müəssisələrinin başlıca öhdəliklərindən biri inklüziv təhsili təmin edən mühitin yaradılmasıdır. İnklüziv təhsil bütün təhsilalanların bərabər imkanlar daxilində təhsilə cəlb edilməsidir. İnklüziv təhsil həm dünyada, həm də Azərbaycanda qanunlara əsasən nizamlanmışdır. Tədqiqatın əsas məqsədi ali təhsil müəssisələrində inklüziv təhsilin təşkili vəziyyətini öyrənməkdir. Bu araşdırma keyfiyyət metodu ilə dizayn edilib. Nümunələrin müfəssəl təhlili əsasında ("case study" araşdırmasında) Azərbaycanda 2024-2025 tədris ilində 5 ali təhsil müəssisəsində çalışan 9 nəfər inzibati və akademik heyət üzvü ilə yarı-strukturlaşdırılmış müsahibə aparılıb. Bunun nəticəsində effektivliyin ölçülməsinin fərqli yolları, maneələr və çətinliklər, əlçatanlıq, əməkdaşlıq və digər adlar altında 5 məzmun istiqaməti (tema) müəyyənləşdirildi. İnklüziv təhsilin təşkili ilə əlaqədar fərqliliklər ortaya

çıxarıldı. Təhsilin keyfiyyətinin ölçülməsi, rast gəlinən çətinliklər, dəstək göstərilməsi, resurslarla təmin edilməsi istiqamətində əldə edilən tapıntılar inklüziv təhsilin təşkili ilə bağlı müəyyən fikirlər formalaşdırdı. Beləliklə, ATM-lərdə inkluziv təhsilin təşkili baxımından inzibati və akademik struktur şöbələrin mövcud olub olmaması baxımından qruplara ayrıldığı məlum oldu.

***Açar sözlər:*** inklüziv, ali təhsil, ali təhsildə inklüzivlik, müasir ali təhsil, təhsil sistemi, sağlamlıq imkanları məhdud tələbələr, əlçatanlıq

# Abstract

## Organization of Inclusive Education in Higher Education: A Qualitative Study - the Case of HEIs in Baku

**Turya Heybatova**

**ADA University**

In modern education system people with disabilities have become unseparable part of the education system organized on principles of the equity and accessibility. In comparison with old education system modern education model actively supports inclusivity for people comprising all students unrelated to physical and social issues. Despite governmental regulations for disabled students to access higher education, several bariers exist currently. The Republic of Azerbaijan is striving to provide disabled students with high level of education accessibility. The Second State Programme about Inclusive Education of 2018-2024 centers on the development of Inclusivity in Education and Social life for students with disabilities.

One of fundamental responsibilities of Higher Educational Institutions is to establish an environment that provides inclusive education. Inclusive education is the participation of learners within equal opportunities. Inclusive education is regulated in accordance with the laws in both the world and Azerbaijan. The main purpose of this study to get information about the state of inclusive education in Higher Educational Institutions. The study is designed with qualitative method. In the case study research semi-structured interviews have been conducted with 9 administrative and academic staff members working in 5 Higher Educational Institutions in Azerbaijan during the academic year 2024-2025. As a result of this, 5 themes are specified: different ways to measure effectiveness, obstacles and challenges, accessibility, collaboration and other. Several differences are revealed related to organization of inclusive education. The

findings obtained as to measure effectiveness, encounter challenges, support, be provided resources have formed several ideas related to organization of inclusive education. Thus, it has found that administrative and academic departments were divided into groups based on their current existence related to organization of inclusive education in HEIs.

***Keywords:*** inclusive, higher education, inclusivity in higher education, modern higher education, education system, people with disabilities, accessibility, inclusive education

# MİNNƏTDARLIQ

İlk öncə bu araşdırmanı aparmaqda mənə hər zaman dəstək olan və istiqamət verən elmi rəhbərim Dr. Abbas Abbasova minnətdarlığımı bildirirəm.

Kurs müəllimim Dr. Könül Abbaslıya, dəyərli məsləhətlərinə və təcrübələrini bölüşdüyünə görə təşəkkür edirəm.

Komitə üzvləri, Təhsil Fakültəsinin dekanı Dr. Ülviyyə Mikayılovaya və dos. Elza Səmədliyə yazdığım dissertasiyaya göstərdikləri maraq, o cümlədən rəylərinə görə minnətdaram.

İki illik müddətdə hər zaman yanımda olan və mənə inanan valideynlərimə, ailəmə, yaxınlarıma, dostlarıma təşəkkürümü bildirirəm.

Sonda isə ilham mənbəyim, məni ruhlandıran qızıma təşəkkür edirəm.

# MÜNDƏRİCAT

*I FƏSİL* ........ *12*

GİRİŞ ........ 12

Problem qoyuluşu ........ 13

Tədqiqatın məqsədi və tədqiqat sualı ........ 13

Tədqiqatın əhəmiyyəti ........ 13

*II FƏSİL* ........ *15*

ƏDƏBİYYAT TƏHLİLİ ........ 15

İnklüziv təhsilin tarixi ........ 16

Ali təhsil müəssisələri və inklüziv təhsil ........ 16

Tədris proqramı və əlçatanlıq ........ 17

İnklüziv təhsildə pedaqoji strategiyalar ........ 17

İnklüziv təhsildə texnologiya əsaslı strategiyalar ........ 18

Azərbaycanın ATM-lərində inklüziv təhsilin inteqrasiyası ........ 20

Konseptual çərçivə ........ 21

*III FƏSİL* ........ *26*

METODOLOGİYA ........ 26

Metod ........ 26

İştirakçılar və seçmə ........ 26

Data toplama aləti ........ 28

Data toplama prosesi ........ 28

Data təhlili ........ 29

*IV FƏSİL* ........ *30*

TAPINTILAR ........ 30

Cədvəl 4. ........ 32

İnklüziv təhsildə rast gəlinən maneələr və çətinliklər ........ 32

İnklüziv təhsildə əlçatanlıq ........ 34

Əməkdaşlıq ........ 38

Digər ........ 39

*V FƏSİL* ........ *41*

MÜZAKİRƏ VƏ NƏTİCƏ ........ 41

**Məhdudiyyətlər........................................................................................44**
**Nəticə.......................................................................................................44**

***ƏDƏBİYYAT SİYAHISI .........................................................................46***

*Əlavələr......................................................................................................54*

**Əlavə 1. Etik sözləşmə formu ......................................................................54**

**Əlavə 2. Müsahibə protokolu .......................................................................55**

# I FƏSİL
# GİRİŞ

Cəmiyyətin ayrılmaz bir hissəsi olaraq bütün insanların bərabər imkanlardan faydalanmaq, özlərini dəyərli hiss etmələrini təmin etmək və hüquqlarının qorunması üçün tarix boyu bir sıra addımlar atılır. Buna baxmayaraq, insanlar cəmiyyət tərəfindən diskriminasiyaya məruz qalırlar. Təhsilin bütün mərhələlərində insanlara qarşı qərəzli yanaşmanın aradan qaldırılması üçün tədris proqramlarında dəyişiklik edərək hər kəs üçün uyğunlaşdırılmış proqram tərtib edilir (UN. 1989). Bu proqramlar hər kəsə dilindən, dinindən, cinsindən, dəyərləndərindən, mövqeyindən, bacarıqlarından asılı olmadan hörmət edilməli olduğunu nəzərdə tutur. İnsanların özlərini sosial mühitin bir hissəsi olmaq və vətəndaş hüquqları qorunan bir fərd kimi hiss etmələrini təmin etmək məqsədilə onlara bacarıq və bilik öyrədilir. (Stubbs, 2008).

İnklüziv təhsil – bütün öyrənənlərin bərabər şəkildə təhsil almalarını təmin etmək məqsədilə yaranan əngəlləri aradan qaldırma prosesidir (Ainscow, 2020; UNESCO, 2017). İnklüziv təhsilə fərqli təriflər verirlər. Kirschner (2015) qeyd edir ki, bəzi təhsil mütəxəssislərinə görə, inklüziv təhsil anlayışı etnik mənsubiyyətindən, irqindən, cinsindən, dinindən, sosial sinfindən asılı olmayaraq təhsilin eyni dərəcədə əhəmiyyətli olduğunu göstərən ədalətli bir sistemin mövcud olmasıdır. Bəzilərinə görə isə inklüziv təhsil fiziki və əqli imkanları məhdud olan insanların təhsilə cəlb edilməsini nəzərdə tutur (Kirschner, 2015). Qeyd edilir ki, dünyada ən çox diskriminasiyaya məruz qalanlar sağlamlıq imkanları məhdud (bundan sonra SİM) insanlardır. SİM uşaqların 90 faizi təhsil almaq imkanından məhrumdur (UN, 2006). Birləşmiş Millətlər Təşkilatının (BMT-nin) SİM şəxslərin hüquqları haqqında konvensiyaya əsasən bütün təhsil pillələrində hər bir sağlamlıq imkanı məhdud təhsilalanlar

digər bütün təhsilalanlarla bərabər hüquqlara malikdir (United Nations, 2006). Təhsildə bərabərlik prinsipinə əsasən hər öyrənən eyni dərəcədə önəmlidir (UNESCO, 2017).

**Problem qoyuluşu**

İnklüziv təhsil mühitində bir sıra akademik və fiziki müyəssərliklə bağlı çətinliklər var (Sokal və Katz, 2015). O cümlədən, tədris materiallarının əlçatanlığı, təlimlərin effektivliyi və inklüziv təhsilin təşkilinə cəmiyyətin hələ də mənfi fikirdə olması kimi problemlər inklüziv təhsilin effektiv təşkilinə mane olur (Aydoğan, 2019). Tələbələrin heç bir məhdudiyyət olmadan təhsildə iştirakı üçün qəbul edilən qanunların tam şəkildə tətbiq edilməsi və problemlərin aradan qaldırılması üçün addımlar atılması önəmlidir. Aytaş (2019) qeyd edir ki, universitetlərdə bu cür maneə və çətinliklərin mövcud olmasına baxmayaraq, inklüziv təhsilin yüksək səviyyədə təşkil olunmasına çalışırlar. Azərbaycanda Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən hazırlanan akkreditasiya hesabatlarında verilən məlumatlara əsasən ali təhsil müəssisələrində (bundan sonra ATM) SİM tələbələr təhsil alır. ATM-lərin bəzilərində SİM tələbələr üçün inklüziv təhsil mərkəzləri fəaliyyət göstərir, bəzilərində isə inklüziv mərkəz kimi xüsusi inzibati struktur mövcud deyil.

**Tədqiqatın məqsədi və tədqiqat sualı**

Bu araşdırmanın məqsədi ATM-lərdə inklüziv təhsilin SİM tələbələr üçün necə təşkil olunduğunu öyrənməkdir. Tələbələrə necə dəstək göstərilməsi, fiziki əlçatanlıq, akademik resursların mövcudluğu, inklüziv təhsilin hansı prinsiplər əsasında həyata keçirilməsi, hansı çətinlik və imkanlarının olduğunu öyrənmək bu araşdırmanın başlıca məqsədidir. Bu məqsədlə araşdırmada aşağıdakı tədqiqat sualının cavablandırılması gözlənilir:

Azərbaycanda ATM-lərdə SİM tələbələr üçün inklüziv təhsil necə təşkil olunur?

**Tədqiqatın əhəmiyyəti**

ATM-lərdə inklüziv təhsillə bağlı fərqli və oxşar cəhətlərin müəyyənləşməsi, bu fərqliliklərin arxasında duran səbəblərin tapılması inklüziv təhsilin təşkil edilməsi baxımından

önəm daşıyır. Bu araşdırma elmi ədəbiyyata töhfə vermək və praktik təcrübələrin zənginləşməsindəki roluna görə əhəmiyyət kəsb edir.

# II FƏSİL
# ƏDƏBİYYAT TƏHLİLİ

Müxtəlif ölkələlərdə cəmiyyətlər social və fiziki statusundan asılı olmadan bütün insanlara bərabər şəkildə, əlçatan və əlverişli təhsil imkanları verməklə müasir inkişaf imkanları əldə edir. Bununla bərabər, insanların müəyyən hissəsinin digər bütün insanlarla bərabər şəkildə aldığı təhsil istiqamətində bir sıra çətinliklərlə üzləşdiyi doğrudur. Aşağı gəlirli və ucqar bölgələrdə yaşayan ailələrin uşaqları və gənc tələbələr keyfiyyətli təhsil imkanlarından məhrum olurlar (Alasuutari və dig., 2024). Avropa şurasının demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsil nizamnaməsində (Charter on Education for Democratic Citizenship and Human Rights, 2010) inklüziv təhsil prinsipləri müəyyənləşdirildi. Nizamnamə insanların potensialını ortaya çıxaran və onları heç bir ayrı-seçkiliyə məruz qoymadan bütün fərdlərin təhsilə əlçatanlığını təmin etmək haqqında rəsmi öhdəlik qəbul etdi. Müəyyən qrup insanların təhsil almaq imkanlarının qarşısının alınması tez bir zamanda aradan qaldırılması lazım olan maneələr mövcud olduğunu göstərirdi. BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (The Sustainable Development Goals (SDGs)) inklüziv, balanslı və effektiv təhsil tələb edirdi. Dayanıqlı İnkişaf Məqsədlərinin 30 faizi SİM insanlara yönəlib (United Nations Department of Economic & Social Affairs, 2024). Təhsil sistemində inklüziv təhsilin əhəmiyyəti təkcə SİM tələbələrin təhsilə çıxışının təmin edilməsində deyil, SİM tələbələrlə bərabər eyni mühitdə digər tələbələrlə bərabər imkanların yaradılmasındadır. Bütün tələbələrin təhsildə iştirakını təmin etmək məqsədi daşıyan inklüziv təhsilin bütün dünyada ali təhsildə müəyyən çətinliklərlə üzləşdiyi doğrudur (UNESCO, 2021).

Bütün dünyada müxtəlif fərdlərin və aztəminatlı toplumların təhsildən məhrum qalması ali təhsil müəssisələrində çətinliklərə yol açıb. Bu hal həmçinin SİM insanlara da aid edilir (Jardinez və Natividad, 2024). Inklüziv təhsil, bütün tələblərin təhsil ala biləcəyi və cəmiyyətin

bir fərdi olaraq təhsil almağa təşviq edən bir strategiyanın həyata keçirilməsidir (Morina, 2017). Demokratik cəmiyyətlərə aid dəyərlər və yanaşmaların inklüziv təhsil sisteminə integrasiya edilməsi istiqamətində öhdəliyi var. İnklüziv Təhsil mahiyyətcə bir çox qlobal təşkilatlar və hökumətlər tərəfindən təsdiq edilmişdir. Inklüziv təhsil siyasəti uyğun olaraq insan hüquqları perspektivindən irəli gələn komponentlərlə əlaqələndirilir. (Hardy və Woodcock, 2015).

**İnklüziv təhsilin tarixi**

Təhsildə bərabərlik və inklüzivliyin tarixi 20-ci əsrə dayanır. Sosial mühitdən təcrid olunan və təhsil mühitində iştirak edə bilməyən insanların başlatdığı hərəkatlar nəticəsində ABŞ-da və digər ölkələrdə bərabərhüquqlu təhsil imkanlarının yaradılması istiqamətində qanunlar qəbul edildi. 1975-ci ildə ABŞ-da SİM uşaqların təhsilə çıxışını təmin etmək məqsədilə "Sağlamlıq imkanları məhdud uşaqlar üçün təhsil qanunu" adlı qanun qəbul edildi (Kirschner, 2015). Daha sonra bu qanun "Sağlamlıq imkanı məhdud şəxslərin təhsil aktı" (the Individuals with Disabilities Education Act (IDEA) adlı qanunla əvəzləndi (Kirschner, 2015). Bu qanunda 2 əsas öhdəlik var idi: biri SİM tələbələrə uyğun dövlət təhsilini təmin etmək, digəri isə tələbələri onlar üçün uyğun mühitdə yerləşdirmək (Yell, 2022). Dünyada aparılan təhsilin müyəssərliyini təmin etmək məqsədli çıxışlar bununla bağlı bir sıra qanunların qəbuluna şərait yaratdı. 1989-cu ilə aid Birləşmiş Millətlər Uşaq Hüquqları Konvensiyası, 1993-cü ilə aid Birləşmiş Millətlər SİM insanların bərabər imkanları haqqında standart qaydalar və 1994-cu ilə aid Salamanka Bəyannaməsi qəbul edildi (Lockmun-Bissesur və dig., 2024; United Nations, 2016). Bütün bunlar SİM insanların təhsil hüquqlarının dərk edilməsi və maarifləndirmə prosesinin artması istiqamətində böyük addımlar idi (United Nations, 2016).

**Ali təhsil müəssisələri və inklüziv təhsil**

İnklüziv təhsil siyasəti həm ali təhsil, həm də ali təhsildən əvvəlki pillələri əhatə edir (Khandokar Tazina İslam, 2024). Ümumilikdə Təhsil Sisteminin inkişafı həm ali, həm də ali təhsildən əvvəlki təhsildə hər hansı anti-inteqrasiya siyasətini əsaslı şəkildə rədd edən

inklüzivlik prosesini əhatə edir. 1980-ci ildən bəri Avstraliya, ABŞ və Birləşmiş Krallıq kimi ölkələrin ali təhsil müəssisələrində hər bir kəsin təhsilə əlçatanlığını təmin etmək kimi dövlət siyasətini yerinə yetirmək öhdəlikləri var (Celina və Beate, 2025).

**Tədris proqramı və əlçatanlıq**

Universitetlərə əlçatanlığın təminatı və ali təhsil almaq imkanı sosial-ekonomik vəziyyətin yaxşılaşmasına, hər bir təhsilalanın bərabər imkanlarla təmin olunmasına zəmin yaradır (Awang-Hashim və dig., 2019; Pitman 2020). Dünyanın bir çox ölkələrində SİM tələbələrin ali təhsil almaq imkanları balanslı təşkil edilmir. Son araşdırmalar sübut edir ki, SİM tələbələrin Ph.D. dərəcəsi almaq və daha sonra akademik karyerasında işlə təmin olunma şansı daha azdır (Valle-Florez və dig., 2021). Müəssisənin xarici siyasətinin müəyyənləşməsi, instutisional idarəetmə strukturu və resursların bölüşdürülməsi kimi çoxşaxəli və mürəkkəb struktur ali təhsildə inklüziv təhsilin tətbiqinə təsir edən amillər sırasındadır (Fourie, 2009).

Tələbələr üçün nəzərdə tutulan tədris materialları hər hansı bir diskriminasiyaya məruz qalmadan SİM tələbələr də daxil olmaqla bütün tələbələrin yararlana biləcəyi formatda təşkil olunmalıdır. Dalton və digərləri, (2012) qeyd edir ki, kurikulumlar inklüziv təhsili də nəzərə alaraq tərtib edilsə çoxyönlü təhsil tələblərini cavab vermiş olacaq. Tədris proqramının əsası və materialların çoxyönlü tərtibatı təhsilin effektivliyi daha da artırır. Ədalətlilik prinsipi tələbələrin kurikulum materiallarına əlşatanlığında və təhsil standartlarının artırılmasında mühüm rol oynayır. Tədris proqramı və təhsil siyasəti də daxil olmaqla tədris materiallarına əlçatanlığın təmin olunmasından əvvəl, tələbələr, müəllimlər və inzibati heyət çətinliklərin öhdəsindən gəlməyi bacarmalıdırlar. DeLucaya görə (2013), təhsil mühiti daha çox əlçatanlığın xüsusiyyətlərini diqqət mərkəzində saxlayır.

**İnklüziv təhsildə pedaqoji strategiyalar**

İnklüziv təhsil işçi heyətindən arzulanan məqsədə çatmaq üçün uyğun pedaqoji strategiyalar həyata keçirməyi tələb edir. Baxmayaraq ki, inklüziv təhsilin təşkili üçün strategiyalar və yanaşmalar genişləndirilib, ali təhsildə SİM tələbələr üçün qeyri-bərabər şərait

və təcrid olunma hələ də mövcuddur. (Naylor və Mifsud 2019; Ní Chorcora və dig., 2023). Kreber (2016) bir faktı qeyd edir ki, ali təhsildə iştirakın genişləndirilməsi proqramı (Widening Participation Programmmes in Higher Education Institutions) çərçivəsində bərabərlik və inklüzivlik diqqətə alınmalı və ATM-lər sosial ədaləti təmin etməlidirlər. Mövcud inkişaf proqramları pedaqoji metodların uğurlu tətbiqinə gətirib çıxarır və universitetdə işçi heyətin və tələbələrin məlumatlılığının artmasına imkan verir. Bu səbəbdən inkişaf proqramları mühüm əhəmiyyət kəsb edir (Estanqueiro, 2014). Təhsil və qiymətləndirmə strategiyalarında müxtəlifliyin nəzərə alınmaması pedaqoji əngəlləri aşmaqda çətinlik yaradır və cəmiyyətdə inklüzivliklə bağlı mənfi fikirlər yaradır (Gonçalves və Cardoso, 2010). Bütün qeyd edilən məsələlərlə bağlı pedaqoji planlaşdırma ilə əlaqəli fikirlər ortaya çıxır. İnklüziv təhsildə SİM tələbələr üçün pedaqoji strategiyalar daha çox adaptasiya metodları istifadə edə bilmək üçün məqsədli yanaşma tələb edir. Bu metodlar təlim-tədris materiallarını, eləcə də bütün tələbələri qiymətləndirmək və onların ehtiyaclarını düzgün şəkildə qarşılaya bilmək üçün qiymətləndirmə strategiyalarını əhatə etməlidir (Rao, 2004). SİM tələbələr də daxil olmaqla, bütün tələbələrin özlərini dəyərli hiss edə biləcəkləri bir mühit qurulmasında pedaqoji metodların nizamlanmasının əhəmiyyəti var.

**İnklüziv təhsildə texnologiya əsaslı strategiyalar**

Pandemiya, inklüziv təhsildə meydana gəlmiş SİM tələbələrlə bağlı çağırışlar bir faktı sübut etdi ki, müasir texnologiya cəlb edilmiş təhsil yanaşmaları öyrənmə mühitini daha yaxşı nəticələrlə təmin edir və inklüziv təhsilə dəstək olan bir mühitə çevrilmək yolunda böyük potensiala malikdir (Fern´andez Batanero və dig., 2022). Müasir təhsil strategiyalarında tədris metodları hərtərəfli şəkildə nəzərdən keçirilir. Çünki, texnoloji yeniliklərin inteqrasiyası müvafiq olaraq əlçatanlıq və bərabərlik prinsipini təmin etməklə bacarıq və qabiliyyətlərindən asılı olmayaraq bütün tələbələrin iştirakını qaçılmaz hala gətirmişdir (Reyes və dig., 2022). Alexander və digərlərinə (2019) görə, müasir texnologiyalar çeviklik və hərəkətlilik

məzmununda EDUCASE Horizon hesabatlarında qeyd olunduğu kimi, tədris istiqamətlərini yenidən formlaşdırır. Çeviklik və onlayn öyrənmə modelləri tələbələr tərəfindən yüksək qiymətləndirilir, çünki təhsil prosesinə texnologiyanın inteqrasiyasının əhəmiyyətli təsiri ilə fakültə üzvlərinin münsaibətləri dəyişikliyə məruz qalır (Pelletier və dig., 2023). Morina və Carballoya görə (2017), təhsildə inklüzivlik texnologiyanın inteqrasiyası ilə birlikdə xüsusi olaraq vurğulanır. Bu, SİM tələbələrin ehtiyaclarını ödəmək məqsədilə texnoloji mənbələrdən istifadə etmələri ilə əlaqədar olaraq, fakültə üzvlərinin hazırlığı ilə bağlı çağırışlar meydana çıxır. Pedaqoji heyətin inklüziv təhsil təcrübələri ilə paralel, bu texnologiyaları mənimsəmələri və pedaqoji hazırlıqlarına görə əhəmiyyətli dərəcədə həvəsləndirilirlər (Looi və dig., 2014). Mövcud texnologiyaların inteqrasiyası ilə həyata keçirilmiş pedaqoji strategiyaların formalaşdırılmasında əsas öhdəlik, nəinki fənlər üzrə öz biliklərini möhkəmləndirmiş, həmçinin SİM şəxslər də daxil olmaqla bütün tələbələrə öyrətmə prinsipini və müasir texnologiyalar da daxil olmaqla, ən müasir mənbələrdən istifadə qaydasını bilən müəllimlərin üzərinə düşür (Sánchez-Díaz və dig., 2022).

Bütün bunlarla bərabər, texnoloji resursların istifadəsi yetərli deyil. Nəticədə, bütün tələbələrin texnoloji resurslardan faydalana bilməsi üçün əlçatanlığın təmin olunduğu bir mühit formalaşdırılması lazımdır (Stambekova və dig., 2020; Williams və Zirkle, 2016).

Tədris metodlarında öyrənmə mühitinə oyunların daxil olması tələbələrə dərslərdə iştiraka stimul verir və motivasiya edir. Diqqət çatışmazlığı kimi məhdud imkanları olan tələbələr üçün interaktiv üsullarla öyrənmə mühitinin təşkili onların iştirakını ciddi şəkildə dəstəkləyir (Talan, 2020). Genişlənmiş və virtual reallıq texnologiyalarının tətbiqi tələbələrin müxtəlif nəzəriyyələr haqqında biliklərə yiyələnməsini təmin edən nəhəng öyrənmə bacarıqları təklif edir. Bu alətlərin tətbiqinin təhsilin məzmununu hərtərəfli etməsi inklüziv təhsili daha dəyərli strategiya halına gətirir və onun əlavə yanaşmalardan istifadəsinə sövq edir (Kalogiannakis və dig., 2021).

**Azərbaycanın ATM-lərində inklüziv təhsilin inteqrasiyası**

Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi mexanizmi SİM şəxslər üçün inklüziv təhsilin inkişafında dövlət proqramının (2018-2024) dəstəyi ilə həyata keçirilir. Bu proqram SİM şagirdlərlə işləyən müəllimlərin sayının artması ilə daha da inkişaf etdi. Bu proqram infrastrukturun uyğunlaşdırılması, müəllim hazırlığı, resursların inkişafı, resurs mərkəzlərinin təşkili və bütün bu məqsədlərə çatmaq üçün qanunvericilikdə dəyişiklik edilməsini təmin edən bir neçə məqsəd və strategiyadan təşkil edilib. Dayanıqlı inkişaf məqsədi (Sustainable Development Goal 4) proqramının bir hissəsi erkən uşaqlıq dövrünün, ümumi təhsilin və ali təhsilin inkişafına xidmət edən fəaliyyətləri özündə əks etdirir. 2003-cü ildən 2011-ci ilə qədər Azərbaycanın maliyyə dəstəyi ilə həyata keçirilən inklüziv təhsil islahatı tərəfdaşlıqlar qurdu, maliyyə və inzibati resurslar ayırdı, tərəfdaşlıqlar qurdu (Mikayılova, 2019). Dövlət tərəfindən maliyyələşdirilən pilot məktəb və bağçalar quruldu.

Azərbaycanda inklüziv təhsil strategiyalarının irəliləyişi peşəkar mentor və ekspertlərin cəlb olunduğu çoxsaylı təlim fəaliyyətlərindən keçdi. Azərbaycan Dövlət İqtisad Universiteti (ADİU), Bakı Slavyan Universiteti (BSU), Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) kimi ATM-lərinin iştirakı ilə inklüziv təhsilin tətbiqi real təcrübə prosesindən keçdi. ADPU inklüzivlik proqramı çərçivəsində müəllimlər üçün təşkil olunan təlimdə peşəkar dəstək göstərmək üçün qabaqcıl ATM idi (Allahverdiyeva 2021). Məktəbəqədər, ibtidai və ümumi təhsil siniflərində 268 SİM uşağın cəlb edilməsi ilə 3 pilot layihə tətbiq edildi.

Bununla bərabər, bu proqramın uğurlu tətbiqi özü ilə peşəkar müdaxiləyə gərək duyulan bir sıra çətinliklər gətirdi:

1. SİM təhsilalanlar üçün inklüziv qiymətləndirmə siyasətinin (İnclusive Assessment Policy) bəzi çatışmazlıqları var idi (UNESCO, 2017)
2. Milli təhsil siyasətində inklüziv təhsil yox idi.
3. İnklüziv təhsil siyasəti SİM uşaqların problemlərinin həllinə yönəlmədiyi üçün inklüzivliyin özü və inklüziv təhsil səhv başa düşüldü (Mikayılova və dig., 2009).

İnklüziv təhsilin həyata keçirilməsinin birinci mərhələsində bütün çətinliklərlə yanaşı cəmiyyətdə və təhsil mühitində inklüzivliklə bağlı məlumatlılıq yarandı.

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasına əsasən 2013-cü ildə dəyişiklik edildi və İnklüziv Təhsil Proqramının 2-ci mərhələsi təqdim edildi. İkinci mərhələ ianə və UNİCEF yardımı ilə bir neçə məktəbdə yeni pilot layihələr şəklində həyata keçirildi (E-Qanun, 2013).

İnklüziv təhsilin təhsil siyasətinə inteqrasiyası SİM insanlar üçün təlimlərin əlçatanlığını təmin etmək üçün bir sıra amillər tələb etdi. Dövlət tərəfindən atılan uğurlu addımlardan biri rahat sinif otaqları və avadanlıqların əlçatanlığı idi. Azərbaycan Dövlət İqtisad Universiteti (ADİU) Milli təhsil sisteminə inklüzivliyin integrasiya edilməsi insanların məlumatlanması üçün müxtəlif kurslar təşkil edən qabaqcıl universitetlərdən biri olmuşdur (Allahverdiyeva, 2020).

**Konseptual çərçivə**

İnklüziv təhsil mühitində kurikulumun inkişafına xidmət edən Universal Öyrənmə Dizaynı yanaşması öyrənmə prosesində bütün fərdlərə bərabər imkanlar yaradır (Lockmun-Bissesur və dig., 2024). Xüsusi Texnologiya Tətbiqi Mərkəzi (CAST (Center for Applied Special Technology)) tərəfindən ilk dəfə təqdim olunmuş "Universal Öyrənmə Dizaynı (Universal Design for Learning-UDL)" təhsilalanların bütün tədris imkanlarından faydalana bilməsini və onların təhsilə çıxışını təmin edir. Bu nəzəriyyənin məqsədi yalnız SİM tələbələrin deyil, bütün tələbələrin bərabər şəkildə inklüziv təhsilə çıxışının təmin edilməsidir. Jones və digərlərinə (2011) görə, Universal Öyrənmə Dizaynı tədris proqramının bütün öyrənənlər üçün uyğun hala gətirilməsini nəzərdə tutur və 3 əsas prinsipi var:

1) Təqdimatın müxtəlif vasitələri
2) Fəaliyyət və ifadə tərzlərinin müxtəlif vasitələri
3) Motivasiyanın müxtəlif vasitələri

Təqdimatın müxtəlif vasitələri dərs proqramının müxtəlif formalarda öyrənənlərə çatdırılmasıdır, bura vizual, yazılı, şifahi və digərlərini aid etmək olar. Fəaliyyət və ifadənin müxtəlif vasitələri dedikdə öyrənənlərin yiyələndikləri bilik və bacarıqları müxtəlif formalarda təqdim etmə bacarığıdır. Motivasiyanın müxtəlif vasitələri isə müxtəlif motivasiyaedici texnikalarla öyrənənlərin dərsə diqqətinin dağılmasının qarşısını almaq vasitəsidir (Priyadharsini və Sahaya Mary, 2024). İnklüzivliyin təşkili ilə bağlı bəzi amillər universal öyrənmə dizaynının təqdim olunmuş 3 prinsipi əsasında həyata keçirilməsinə təsir edir (Qrafik 1).

Qrafik 1. Universal Öyrənmə Dizaynının həyata keçirilməsində çətinliklər (götürülüb: Priyadharsini və Sahaya Mary, 2024)



Universal Öyrənmə Dizaynı yanaşmasının həyata keçirilməsinə maneə törədən bu amillərə daxildir: müəllim hazırlığının olmaması, resursların məhdudiyyəti, yeniliyə açıq olmamaq, tədris proqramı məhdudiyyətləri, zaman məhdudiyyəti, məlumatsızlıq, qiymətləndirmədə çətinliklər, tələbə ehtiyaclarının müxtəlifliyi, texnoloji əngəllər, data əldə etmək və monitorinq (Priyadharsini və Sahaya Mary, 2024). Müəllim hazırlığının olmaması inklüziv mühitdə Universal Öyrənmə Dizaynı strategiyasının effektiv tətbiqinə çətinlik yaradır və əlavə təlim və inkişaf proqramlarının təşkilinə ehtiyac olduğunu göstərir. Resursların əlçatanlığının tam təmin edilməməsi Universal Öyrənmə Dizaynının prinsipləri əsasında həyata keçirməyə mane olur. Tədris proqramının mövcud məhdudiyyətləri də yeni metodlara uyğunlaşmağa imkan vermir. Tədris proqramının yükünün çox olmasına görə vaxt məhdudiyyəti qrafikdə qeyd olunnan maneələrdən biridir. Çünki Universal Öyrənmə Dizaynı əsasında dərs prosesini təşkil etmək müəyyən zaman tələb edir. Digər maneələrdən biri də məlumatsızlıqdır hansı ki, Valideynlərin, təhsilalanların və digər maraqlı tərəflərin məlumatsızlığı nəticəsində onlar tərəfdən dəstək gəlmədiyi üçün Universal Öyrənmə Dizaynı prinsiplərinin effektiv tətbiq edilməsinə maneə yaranır. İnklüziv siniflərdə təhsilalanların ehtiyaclarının müxtəlifliyi Universal Öyrənmə Dizaynının prinsiplərini tam olaraq həyata keçirməyə imkan vermir. Qiymətləndirmədə ənənəvi üsulun tətbiqi Universal Öyrənmə Dizaynı yanaşmasının önündə duran problemlərdən biridir. Başqa bir çətinlik Universal Öyrənmə Dizaynının effektivliyi ilə bağlı data əldə etmək bəzən çətin ola bilər. Bu da nəticələri ölçmək və data əsasındə təkmilləşdirmə aparmaq proseslərinin reallaşmağına imkan vermir (Priyadharsini və Sahaya Mary, 2024).  Universal təhsil dizaynı və onun reallaşmasına təsir edən amillər, başqa sözlə mane yaradan amillər Qrafik 1-də verilmişdir.

Universitet və kolleclər bu sahədə inkişaf etdikcə, inklüziv təhsil, təkcə müəllim və işçi heyətinin deyil, həm də tələbə, valideyn və cəmiyyətin məsuliyyətidir. Florian (2014) qeyd edir

ki, ali təhsildə fərqliliklərinə baxmayaraq, bütün tələbələrin faydalana biləcəyi bir mühit yaratmağa ehtiyac var. Ali təhsil müəssisələri təhsilin əlçatanlığını hamı üçün təmin etmək, sağlamlıq imkanları məhdud tələbələrə dəstək xidmətləri təklif etməyi diqqətdə saxlamalıdırlar. Buraya daha yaxşı kampus imkanları yaratmaq, mentorluq proqramları təşkil etmək, inklüziv mədəniyyət formalaşdırmaq daxil ola bilər (Florian 2014).

**Ədəbiyyatdakı boşluqlar**

Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda inklüziv təhsillə bağlı müxtəlif araşdırmalar mövcuddur (Allahverdiyeva, (2020); Mikayılova və digərləri, (2023) və s.). Qeyd edilən araşdırmalarda inklüziv təhsil haqqında müxtəlif layihələr və təlimlər, SİM şagird, tələbələr üçün hansı tədris metodlarının həyata keçirilməsi (Allahverdiyeva, 2020), Azərbaycanda təhsil siyasəti və inklüziv təhsilin tarixi haqqında araşdırılıb (Mikayılova və dig., 2023). Azərbaycanda ATM-lərdə inklüziv təhsilin təşkili, bu istiqamətlərdə rastlanan problemlər və ya çatışmazlıqları tədqiq edən elmi-tədqiqatlara rast gəlinməmişdir.

Bu araşdırmada yer alan bütün ədəbiyyatları araşdırdıqda, inklüziv təhsilin uğurla həyata keçirilməsində çətinliklərlə də mübarizə aparıldığı görünür. ATM-lərdə inklüziv təhsil siyasətinin tətbiqinə baxmayaraq, müxtəlif iqtisadi, sosial və institusional məsələlərdə müxtəlif maneələr olduğu görünür. ATM-lər akademik heyət üzvlərinə və inzibati şuraya dəstək verməklə inklüziv təhsilin tətbiqində böyük rol oynayırlar. İnklüziv təhsil müxtəlif insanlar və onların bacarıqları ilə əlaqə tələb edən adaptiv bir prosesdir. Təlimlər və peşəkar inkişaf inklüzivliyin inteqrasiya prosesinin vacib hissələrindən biridir. Lakin lazımi pedaqoji bacarıq və məlumatlılığın olmaması istənilən məqsədə çatmağa mənfi təsir göstərə bilər. Bu mənfi təsirlərin öhdəsindən gəlmək məqsədilə müasir təhsil strategiyaları böyük rola malikdir. ATM-lər inklüziv təhsili dəstəkləyən məcburi öhdəliklər yerinə yetirməlidirlər. Texnologiyaya əsaslanan pedaqoji strategiyaların reallaşmağı SİM şəxslər üçün öyrənmə prosesinin uğurla həyata keçirilməyini təmin edir. Azərbaycanda inklüziv təhsil strategiyalarının davamlı olaraq

gücləndirilməsi ilə görülən tədbirlər maneələrin aradan qaldırılmasına və inklüziv təhsilə inteqrasiyanın sürətlənməsinə xidmət edir.

# III FƏSİL
# METODOLOGİYA

## Metod

Metodlar tədqiqatçının çatmaq istədiyi bir yolda istifadə etdiyi texnikalar və izlədiyi bir prosesdir. Buna başqa sözlə, planlama demək olar (Corbin və Strauss, 2008). Ali məktəblərdə inklüziv təhsilin təşkili vəziyyətini öyrənmək məqsədilə aparılan bu araşdırma keyfiyyət metodu ilə aparılıb. Keyfiyyət araşdırması hadisə və ya problemi təsvir edərək onu dərindən anlamağa xidmət edir (Creswell, 2012). Keyfiyyət metodundan kəmiyyət metodu vasitəsilə ilə öyrənilməsi mümkün olmayan və ya bir qədər çətin olan hislər, düşüncə və emosiyaları öyrənmək kimi daha mürəkkəb detalları əldə etmək mümkündür. Həmçinin keyfiyyət metodu daha öncə məlum olan bir fenomendən yeni anlayışlar ortaya çıxmasına imkan yaradır (Corbin və Strauss, 2008). Storey (2007) qeyd edir ki, keyfiyyət araşdırması insanların hadisələrə baxış bucağını öyrənməyə, onların hadisələrə necə məna yüklədiklərini ölçməyə yönəlmiş araşdırmadır. Bu keyfiyyət araşdırması nümunələrin müfəssəl təhlili (case study) yanaşması istiqamətində aparılıb. Nümunələrin müfəssəl təhlili sosial elmlərdə geniş miqyasda rast gəlinən yanaşmadır (Bloomberg və Volpe, 2022). Bu yanaşma, hər hansı bir hadisənin, bir qurumun, fərdin və ya bir qrupun real həyat kontekstində sistematik və dərin araşdırılmasına xidmət edir (Coombs, 2022). Nümunələrin müfəssəl təhlili müsahibə, anket sorğusu, sənəd təhlili, müşahidə və digər formalarda data toplamağa imkan verir (Schoch, 2020). Bu araşdırma iştirakçılardan götürülən müsahibələr əsasında data toplanıb.

## İştirakçılar və seçmə

İnklüziv təhsilin təşkili haqqında vəziyyəti öyrənmək üçün akkreditasiya hesabatlarına müraciət olunub. Akkreditasiya hesabatlarında inklüziv təhsil və SİM tələbə sayı haqqında qeyd olunub. Məqsədli seçmə prinsipi əsasında ilkin seçmə müəyyən edilib. Məqsədli seçmə tədqiqat sualına cavab tapmaq istiqamətində bizi daha zəngin informasiya ilə təmin edə bilən,

araşdırma aparılan sahədə bilik və təcrübəsi olan iştirakçıları seçməkdir (Palinkas və dig., 2015). Patton (2015) qeyd edir ki, məqsədli seçmə tədqiqatçıya araşdırma mövzusu ilə bağlı daha çox məlumat verir.

Bakı və Sumqayıtda yerləşən 10 universitetə araşdırmada iştirakla bağlı icazə məktubu göndərilib və bu universitetlərin 5-i iştirakla bağlı müsbət cavab verib. Universitetlərin statusu, profili, inklüziv mərkəz və SİM tələbə sayı ilə bağlı Cədvəl 1-də məlumatlar əks olunub.

Cədvəl 1. Universitetlər haqqında məlumat

| **Ali təhsil müəssisələri** | **Status** | **Profil** | **Ümumi tələbə sayı** | **İnklüziv təhsil mərkəzi** | **SİM tələbə sayı** |
|---|---|---|---|---|---|
| ATM 1 | Dövlət | Xüsusi | ~19,000 | var | 112 |
| ATM 2 | Dövlət | Ümumi | ~3,200 | yoxdur | 12 |
| ATM 3 | Dövlət | Ümumi | ~24,600 | yoxdur | 27 |
| ATM 4 | Özəl | Ümumi | ~3,500 | var | 18 |
| ATM 5 | Dövlət | Xüsusi | ~5,700 | yoxdur | 6 |

Bu tədqiqatın iştirakçıları 2024-2025-ci tədris ilində Cədvəl 1-də qeyd edilən ATM-lərdə fəaliyyət göstərən inzibati və akademik heyətin üzvləridir. İştirakçılar qartopu seçməsi ilə seçilib. Qartopu seçməsində əvvəlcə tədqiqatçı çox kiçik sayda iştirakçı ilə data toplamağa başlayır. Daha sonra həmin iştirakçılardan tədqiqatın meyarlarına uyğun və könüllü olacaq iştirakçılar tövsiyyə etməyi xahiş edir (Parker və dig., 2019). Bu tədqiqatda ümumilikdə 9 nəfər iştirakçı könüllü olaraq iştirak edir. İştirakçıların 2-si müəllim, 7-si inzibati heyət üzvü olmaqla 9 nəfərdirlər. Müəllim heyəti SİM tələbələrə dərs deyən müəllimlərdir. İnzibati işçilər isə SİM tələbələrin təhsil aldığı ATM-lərdə idarə heyətindən seçilmişdir. Müsahibə iştirak edən iştirakçıların cins, yaş kateqoriyasına daxil olması, çalışdığı müəssisə, vəzifəsi və həmin vəzifədə çalışdığı müddət Cədvəl 2-də qeyd edilib.

Cədvəl 2. İştirakçıların demoqrafik göstəriciləri

| **İştirakçı kodu** | **Cins** | **Yaş** | **Çalışdığı müəssisə** | **Vəzifə** | **İş stajı** |
|---|---|---|---|---|---|
| A | kişi | 50-60 | ATM 1 | İnzibati işçi | 11 il |
| B | qadın | 45-55 | ATM 1 | İnzibati işçi | 10 il |
| C | qadın | 35-45 | ATM 1 | İnzibati işçi | 13 il |

| | | | | | |
|---|---|---|---|---|---|
| D | qadın | 35-45 | ATM 2 | İnzibati işçi | 5 il |
| E | kişi | 35-45 | ATM 3 | İnzibati işçi | 7 il |
| F | qadın | 50-60 | ATM 3 | İnzibati işçi | 15 il |
| G | qadın | 20-30 | ATM 4 | Müəllim | 5 ay |
| H | qadın | 25-35 | ATM 3 | Müəllim | 12 il |
| I | qadın | 30-40 | ATM 5 | İnzibati işçi | 10 il |

**Data toplama aləti**

Tədqiqat sualına cavab tapmaq məqsədilə keyfiyyət metodunun müsahibə texnikasından istifadə edilib. Müsahibə dolğun, detallı informasiya əldə edilməsi üçün bir söhbətdir (Babbi, 2016). Schostak (2006) əlavə edir ki, müsahibə araşdırılan mövzuya daha dolğun bir baxış formalaşdırmaq üçün iştirakçı ilə müsahibə götürən tərəf arasında bir söhbətdir. Müsahibə sualları yarı-strukturlaşdırılmış formada tərtib edilib. Yarı-strukturlaşdırılmış müsahibədə müsahibə davam edən müddət ərzində protokolda qeyd edilən suallardan əlavə yaranan sualları iştirakçıya ünvanlamaq mümkündür (Ruslin və dig. 2022). Müsahibələrə başlamazdan əvvəl etik sözləşmə və müsahibə protokolu hazırlanıb (Əlavə 1).

**Data toplama prosesi**

Data toplamaq üçün iştirakçılarla görüş yeri və vaxtı təyin edildi. İştirakçılar müsahibədən əvvəl etik sözləşmə və müsahibə protokolu ilə tanış edildi. Müsahibədə iştirakla bağlı razılıqlarını həm şifahi, həm də yazılı şəkildə təsdiqlədilər. Hər bir iştirakçıdan ayrı-ayrılıqda müsahibə alındı. 9 iştirakçıdan 8-i ilə üzbəüz, biri ilə isə onlayn şəkildə "MS Teams" proqramı üzərindən görüş təyin edildi. Müsahibəyə başlamazdan əvvəl məxfiliyin qorunması ilə bağlı hər bir iştirakçıya adının və fəaliyyət göstərdiyi ATM-in kodlaşdırılaraq araşdırmada yer alacağı bildirildi. İştirakçıların hər biri üçün müsahibə müddəti 1 saat təyin olundu. İştirakçıların səsləri razılıqları əsasında qeydə alındı və daha sonra yazıya köçürüldü.

**Data təhlili**

Datanı təhlil etmək məqsədilə müsahibələr yazıya köçürüldükdən sonra "Delve Tools" proqramı vasitəsilə kodlaşdırma aparılıb. Əldə olunmuş datalar məzmun istiqamətləri (tema),

kateqoriya və kodlar şəklində təsvir edilib, Cədvəl 3-də göstərilmişdir. Daha sonra şərh edilib və müzakirə olunmuşdur.

# IV FƏSİL

# TAPINTILAR

Müəyyən edilmiş ali təhsil müəssisələrində çalışan akademik və inzibati heyət üzvlərindən alınan müsahibələr ali təhsil müəssisələrində inklüziv təhsilin təşkili vəziyyətini dərindən öyrənməyə imkan verdi. Müsahibələrin hər biri yazıya köçürülüb və təhlil edilib. Müsahibələrdə demək olar ki, hər bir cümlə və paraqraf üçün kodlar müəyyənləşdirilib. Bütün transkriptlərdəki cümlələr və ya paraqraflar uyğun kodlar altında birləşdirilib. Həmin kodlar müxtəlif kateqoriyalar altında cəmlənib. Nəticədə effektivliyin ölçülməsinin fərqli yolları, maneələr və çətinliklər, əlçatanlıq, əməkdaşlıq və digər adları altında beş məzmun istiqaməti ortaya çıxıb. Həmin məzmun istiqamətləri üzrə uyğun olaraq 5 cədvəl tərtib edilib. Hər bir məzmun istiqaməti kateqoriya əsasında formalaşıb. Bundan əlavə, cədvəllərdə eyni koda nə qədər rast gəlindiyini göstərən kodun tezliyi bölməsi verilib. Cədvəllərin digər bir bölməsində isə kodlara hansı ali təhsil müəssisəsində rast gəlindiyi təsvir edilib. Cədvəllərdə hər bir koda aid sitatlar təqdim edilib, sitatın hansı iştirakçıya məxsus olduğu mötərizədə göstərilib. Burada məxfilik qaydalarına əsasən, bütün iştirakçı və fəaliyyət göstərdikləri ali təhsil müəssisələri kodlardan istifadə edilərək gizli saxlanmışdır.

**Effektivliyin ölçülməsinin fərqli yolları**

Effektivliyin ölçülməsinin fərqli yolları adlı məzmun istiqaməti əsasında formalaşmış kateqoriya, kod, kodun tezliyi, ATM kodu və sitatlar cədvəl 3-də verilib.

**Cədvəl 3.**

**Effektivliyin ölçülməsinin fərqli yolları**

| Kateqoriya | Kod | Kodun tezliyi | ATM kodu | Sitat |
|---|---|---|---|---|
| Qeyri-maddi ölçülər | Təhsildən sonrakı həyat keyfiyyəti | 1 | ATM 1 | “Onların sabahkı, ali təhsildən sonrakı pillələri biz təmin edə bilirikmi bax əsas məsələ budur. Mən düşünürəm ki, ali təhsil |

| | | | | |
|---|---|---|---|---|
| | | | | keyfiyyəti bununla ölçülür: nə dərəcədə onlar sonra iş tapa bilirlər özünə” (İştirakçı S). |
| | Əmək bazarında mövqe | 2 | ATM 1 | “Effektivliyin ölçülə bilən tərəfi odur ki, universiteti bitirən SİM tələbələr əmək bazarında mövqe tutublar, müşahidə aparmışıq” (İştirakçı A). |
| | Əlverişli şərait | 2 | ATM 1<br>ATM 4 | “Effektivliyini, ümumiyyətlə, əsas prinsipi, dediyim kimi, əlçatanlıq olduğuna görə, digər tələbələrdən seçilməyəcək, akademik nailiyyətləri varsa, məncə bu, təhsilin əsas prinsiplərinin, məsələn, tamamlandığı deməkdir” (İştirakçı G).<br>“Effektivliyi yaradılan şərait və tələbələrin göstərdiyi maraqla ölçə bilərik“ (İştirakçı C). |
| Maddi ölçülər | Tələbələrin sayı | 2 | ATM 2<br>ATM 3 | “Effektivliyini ali təhsil ali məktəblərə nə qədər əlilliyi olan tələbələr daha çox qəbul olursa deməli o universitetdə inklüziv təhsil daha effektlidir” (İştirakçı G) . |
| | Tədbirlərin sayı | 1 | ATM 5 | “Tədbirlərin sayının çoxluğu həqiqətədən deyim də artıq məlumatlılıq yaradığına görə keyfiyyəti də yüksək götürə bilirik” (İştirakçı A) . |

Effektivliyin ölçülməsinin fərqli yolları maddi və qeyri-maddi ölçülər kateqoriyasında göstərilir. Maddi ölçülər dedikdə kəmiyyət, tam say nəzərdə tutulur, qeyri-maddi ölçülər isə keyfiyyət göstəriciləri olaraq təsvir edilirlər. Cədvəl 3-də qeyri-maddi ölçülərə həyat keyfiyyəti, əmək bazarında necə mövqe tutduqları aid edilmişdir. ATM 1-də çalışan “İştirakçı A” qeyd edir: “Effektivliyin ölçülə bilən tərəfi odur ki, universiteti bitirən SİM tələbələr əmək bazarında mövqe tutublar, müşahidə aparmışıq”. Yenə ATM 1-də çalışan “ İştirakçı B” eyni fikirdədir və qeyd edir ki, universiteti bitirdikdən sonra SİM tələbələrin iş tapa bilməsi, keyfiyyətli yaşam üçün nə dərəcədə özlərini təmin edə bilmələri inklüziv təhsilin effektivlik göstəricisidir. Bir neçə iştirakçı isə inklüziv təhsilin effektivliyinin ali təhsil müəssisəsinə qəbul olan tələbələrin sayı ilə ölçüldüyünü qeyd edir. Bununla bağlı “ İştirakçı D” belə qeyd edir: “Ali məktəblərə nə qədər əlilliyi olan tələbələr daha çox qəbul olursa, deməli o universitetdə inklüziv təhsil daha effektlidir”. ATM 3-də inzibati heyət üzvü bildirdi ki, inklüziv təhsilin effektivliyini hansı müəssisədə nə qədər SİM tələbənin təhsil alması, nə qədər irqindən,

cinsindən asılı olmayaraq təhsil ala bilən insanların olması göstərir (İştirakçı E, ATM 3). Başqa bir iştirakçı isə effektivliyi təşkil edilən tədbirlərin sayı ilə bağlayır və nə qədər çox tədbirlər təşkil edilirsə, inklüziv təhsillə bağlı insanlarda inklüziv təhsillə bağlı məlumatlılıq yaranır və bunun effektivliyin bir göstəricisi olduğunu qeyd edir (İştirakçı " I").

Digər tərəfdən effektivliyin qeyri-maddi ölçülərində yaradılan əlverişli şərait kodu da müəyyənləşdirilmişdir. "İştirakçı C" qeyd edir: " Effektivliyi yaradılan şərait və tələbələrin göstərdiyi maraqla ölçə bilərik". Digər bir iştirakçı qeyd edir ki, effektivliyini, ümumiyyətlə, əsas prinsipi, əlçatanlıq olduğuna görə, digər tələbələrdən seçilməyəcək, akademik nailiyyətləri varsa, bu, təhsilin əsas prinsiplərinin, tamamlandığı deməkdir.

**İnklüziv təhsildə rast gəlinən maneələr və çətinliklər**

İnklüziv təhsildə rast gəlinən maneələr və çətinliklər adlı məzmun istiqaməti əsasında formalaşmış kateqoriya, kod, kodun tezliyi, ATM kodu və sitatlar cədvəl 4-də verilib.

**Cədvəl 4.**

**İnklüziv təhsildə rast gəlinən maneələr və çətinliklər**

| Kateqoriya | Kod | Kodun tezliyi | ATM kodu | Sitat |
|---|---|---|---|---|
| Emosional-psixoloji çətinliklər | Cəmiyyətin münasibəti | 9 | ATM 1<br>ATM 2<br>ATM 3<br>ATM 5 | "Maneələr- cəmiyyətin hələ də fərqli yanaşmalara açıq olmadığını düşünürəm. Ümumən cəmiyyətin bu mövzuda böyük əskiklikləri də var" (İştirakçı B) . |
| | Valideynlərin narahatlığı | 7 | ATM 3<br>ATM 5 | "Valideynləri köhnə stereotiplərdən xilas etmək lazımdı övladlarına qarşı.Çünki valideynlər uşaqlarını hamıdan gizlədir və daha böyük səhv edir" (İştirakçı E) . |
| Peşəkar mühitdə yaranan maneələr | Kadr yetərsizliyi | 3 | ATM 1<br>ATM 3<br>ATM 5 | "Müəyyən kadr hazırlığı gedir ancaq hesab edirəm ki, ölkənin təhsil arsenalı üçün az bir rəqəmdir və müəllim hazırlığını artırmaq lazımdır ki, tam əhatə edə bilsin" (İştirakçı E) . |
| | Metodik çətinliklər | 4 | ATM 3<br>ATM 5 | "İnklüziv təhsilin metodikası işlənməlidir. Hələki biz ümumi metodika ilə gedirik. Bunlar arasında böyük fərqlər var" (İştirakçı F) . |

| | | | |
|---|---|---|---|
| Müəllimlərin inklüziv təhsil əleyhinə fikirləri | 3 | ATM 1<br>ATM 5 | “Cəmiyyətdə təbliğ edilməlidir inklüziv təhsil. Biz tərəfdən tələbələrə yüksək səviyyədə dəstək göstərilir. Amma təəssüf ki, bəzi müəllimlər inklüziv təhsil mühitinə müsbət münasibət göstərə bilmirlər” (İştirakçı C) . |
| Fiziki maneələr | 1 | ATM 4 | “Mən düşünürəm ki, SİM tələblərin gediş-gəlişi üçün fiziki maneələr var” (İştirakçı G) . |

Maneələr və çətinliklərlə bağlı kodlara nəzər yetirdikdə həm emosional-psixoloji çətinliklər, həm də peşəkar mühitdəki maneələr olmaqla 2 kateqoriyaya bölündüyü göstərilir. Emosional-psixoloji maneələrə aid cəmiyyətin münasibəti və valideynlərin baxışı kodları, peşəkar mühitdə yaranan maneələrə aid kadr yetərsizliyi, metodik çətinliklər, müəllimlərin inklüziv təhsil əleyhinə fikirləri və fiziki maneələr adlı kodlar cədvəl 3-də yer alır.

ATM 1-də “İştirakçı C” qeyd edir: “Bəzi müəllimlər problemli tələbələr kimi baxırlar onlara, elə bil ki, bu uşaqlar onlara nəsə problem yaradır. Onlar deyirlər ki, niyə görə mən ona əlavə vaxt ayırmalıyam, mən istəmirəm SİM tələbələrlə məşğul olmaq”. “Təəssüf ki, bəzi müəllimlər inklüziv təhsil mühitinə müsbət münasibət göstərə bilmirlər” (İştirakçı D, ATM 2). Digər bir iştirakçı qeyd edir ki, Azərbaycanda hələ ki, ən böyük problem kadr çatışmazlığıdır. SİM tələbələrə dərs deyən pedaqoqlar fərqli olmalıdır, ayrı təlim proqramları olmalı, dərs vəsaitləri, proqramları fərqli olmalıdır, yəni fərdi yanaşma nəzərə alınmalıdır (İştirakçı E, ATM 3). İnklüziv təhsilə cəlb edilən kadrlar üçün treyninqlər keçirilməlidir, onlar təlimlərə cəlb olunmalıdırlar. İnklüziv təhsilin metodikası üzərində işlənməlidir, çünki ümumi metodika ilə inklüziv təhsilin metodikası fərqlidir. Belə halda bu bizə SİM tələbələrlə işləməyi öyrənməkdə çətinliklər yaradır. ATM 5-də akademik heyət üzvü qeyd edir ki, müəllimlər təlimlərdən keçmir, ona görə də çətinlik çəkirlər (İştirakçı I, ATM 5). Peşəkar mühitdə yaranan maneələrə fiziki maneələr də daxildir ki, başqa bir iştirakçı bu maneələrin SİM tələbələrin gediş-gəlişinə çətinlik yaradır.

Emosional-psixoloji maneələr dedikdə isə bura həm valideynlərin fikirləri, həmçinin cəmiyyətin münasibəti aid ola bilər. "İştirakçı E" qeyd edir: "Maneələrdən biri də valideynlərdən gəlir. Çünki onlar uşaqlarını hələ də gizlədir cəmiyyətdən və onların təhsilə alçatanlığını məhdudlaşdırır. Valideynlərin övladlarını gizləməyi onların asılı vəziyyətdə qalmaqlarına səbəb olur və onları pis vərdişlərə yönəldir". Digər bir iştirakçı da valideynlərin övladlarını gizlətməyə çalışdığını qeyd edərək, bu məsələnin onları geri saldığını və elə birinci mübarizənin valideynlərlə aparılmalı olduğunu vurğulayır. ATM 1-də inzibati heyət üzvü qeyd edir ki, o, cəmiyyətin psixoloji olaraq hələ də hazır olmadığını düşünür, hələ də fərqli yanaşmalara açıq olmadığını düşünür. Təkcə ali təhsil müəssisələrində yox, ümumilikdə cəmiyyətin bu mövzuda əskiklikləri var (İştirakçı B, ATM 1).

**İnklüziv təhsildə əlçatanlıq**

Cədvəl 5-də əks olunan digər məzmun istiqaməti əlçatanlıqdır, kodlara əsaslanaraq 3 kateqoriyaya bölündüyü təqdim edilir: Akademik resurslar, fiziki əlçatanlıq və dəstək.

**Cədvəl 5.**

**İnklüziv təhsildə əlçatanlıq**

| Kateqoriya | Kod | Kodun tezliyi | ATM kodu | Sitat |
|---|---|---|---|---|
| Akademik resurslar | Rəqəmsallaşma imkanları | 3 | ATM 1<br>ATM 5 | "Yəni, rəqəmsallaşma imkanları genişlənir, SİM tələbələrin fəaliyyətində müsbət təsir göstərir. Və bundan da universitet səmərəli istifadə edə bilir" (İştirakçı A). |
| | Brayl əlifbası | 1 | ATM 4 | "Kitabxana ilə əlaqə saxlayanda maraqlanmışdım, brayl əlifbası səhv etmirəmsəvar" (İştirakçı G) . |
| | Dərslik və proqramlar | 2 | ATM 3 | "Kafedra üzrə inklüziv təhsil tədrisi üzrə dərs proqramları hazırlanmış, dərs vəsaitləri üzərində işlənilir" (İştirakçı H). |
| Fiziki əlçatanlıq | Lift, rampalar, xəritələr, panduslar | 7 | ATM 1<br>ATM 4<br>ATM 5 | "Bəzi yerlərdə accessible lift, rampalar düzəltmişik. Əlilliyi olan şəxslərə özəl wc-lər xəritələrdə göstərilir" (İştirakçı B). |
| Dəstək | Sosial-psixoloji dəstək | 11 | ATM 1<br>ATM 2 | "Təklifimiz üzrə universitetdə psixoloji dəstək mərkəzi yaradılıb. |

| | | | | |
|---|---|---|---|---|
| | Psixoloq və pedaqoq dəstəyi<br><br>Əmək yarmarkalarında iştirak | | ATM 3<br>ATM 4<br>ATM 5 | Sadəcə həssas kateqoriyanın tələbələri ilə işləyən mərkəzdir. Sadəcə tələbələr deyil, müəllimlər də iştirak edə bilir” (İştirakçı B). |
| | İmtahanların təşkili | 6 | ATM 1<br>ATM 3 | “Özlərini rahat hiss edirlərsə ümumi tələbələrlə birlikdə dərs və ya imtahan prosesində iştirak edirlər. Əgər belə birlikdə iştirak etmək onlara sıxıntı yaradırsa o zaman biz onları inklüziv təhsil mərkəzinə yönəldirik. Orada artıq orada sərbəst iştirak edirlər. Yəni, sıxılmırlar, mərkəzdə rahat şəkildə həm yazılı, həm test həm də şifahi formada imtahanlarını verirlər” (İştirakçı A) . |
| | Reabilitasiya xidməti | 1 | ATM 5 | “Biz nəzəriyyəçilərik, orada mən pedaqogika dərsi deyirəm, sosial pedaqogika dərsi deyirəm amma adaptiv fakültə tamam başqadır, onlar üçün rehabilitasiya xidmətlərimiz var” (İştirakçı I) . |
| | Master klaslar | 1 | ATM 1 | “Eyni zamanda biz master klasslar da keçirik. Məsələn, onlara əl işləri öyrədirik, lazım olanda onu da edirik” (İştirakçı B) . |

Akademik resurslar kateqoriyasında ATM 1-də çalışan “İştirakçı A” belə qeyd edir: “ Rəqəmsallaşma imkanları genişlənir, SİM tələbələrin fəaliyyətində müsbət təsirini göstərir və bundan da universitet səmərəli istifadə edə bilir”. İştirakçı “H” , “Akademik baxımdan materiallar əlçatandır, rahatlıqla materialları əldə edə bilərlər. Elektron kitabxanamız mövcuddur”, deyə qeyd edir. ATM 3-də çalışan inzibati heyət üzvü qeyd edir ki, inklüziv sahədə pedaqogika kafedrası olaraq müəyyən işlər görülür. İnklüziv təhsillə bağlı fənlər tədris olunur. Bir sıra dərsliklər hazırlanır. Kitabxanada mövcud vəsaitlər yer alır” (İştirakçı F, ATM 3). ATM 3-də daha bir iştirakçı qeyd edir ki, kafedra üzrə inklüziv təhsil tədrisi üzrə dərs proqramları hazırlanmış, dərs vəsaitləri üzərində işlənilir (İştirakçı H, ATM 3). ATM 5-də çalışan iştirakçı xüsusi sayt qurulması üzrə işlər getdiyini, reallaşması üçün təklif verdiyini

qeyd edir. Kitabxana üçün "Əlilliyi olan və həssas qruplar üçün kitabxanada xüsusi yerlərin və resursların ayrılması" adlı bir sənəd hazırlanıb və hazırda üzərində işləyirlər.

Fiziki əlçatanlıq kateqoriyası altında müxtəlif fikirlər yer alır. "İştirakçı B" qeyd edir: "Universitetimizdə bəzi yerlərdə SİM tələbələr üçün xüsusi lift, rampalar düzəltdirmişik. Əlilliyi olan şəxslərə özəl yerlər xəritələrdə göstərilir". ATM 5-də akademik heyət üzvü qeyd edir ki, 3-cü tədris binasında sağlamlıq imkanları məhdud uşaqlarımız üçün giriş-çıxış əlçatanlığı təmin olunub, yeni panduslar quraşdırılıb, sanitar qovşaqlar , xüsusi tutacaqlar quraşdırılıb, lift quraşdırılması üçün layihə verilib, tibb məntəqəsi və digər xidmətlər mövcuddur. Başqa bir iştirakçı qeyd edir ki, binada liftlər mövcud olsa da, panduslar bəzi yerlərdə yoxdur. SİM tələbələrin liftdən istifadəsi var. "İştirakçı E" qeyd edir: "Binanın giriş hissəsində panduslar quraşdırılıb və eyni zamanda hətta binanın içərisində hərəkətli panduslar quraşdırılır". Digər iştirakçı bildirir ki, əvvəlki illərə baxdıqda çox dəyişiklər var. Ən böyük dəyişikliklər infrastrukturla bağlıdır. Rahat hərəkət etmələri üçün şərait yaradılmışdır. Hər bir otaq proyektor, elektron lövhələrlə təchiz olunmuşdur (İştirakçı H, ATM 3).

ATM 1-də inzibati heyət üzvü imtahanların təşkili ilə bağlı göstərilən dəstəkdən bəhs edərək qeyd edir ki,  özlərini rahat hiss edirlərsə bütün tələbələrlə birlikdə imtahanda iştirak edirlər. Əgər birgə iştirak etmək SİM tələbələrə sıxıntı yaradırsa, o zaman onlar tələbələri inklüziv təhsil mərkəzinə yönləndirirlər (İştirakçı A, ATM 1).  Bu dəstək ilə əlaqədar " İştirakçı B" müsahibəsində qeyd edir: "Görmə məhdudiyyətli tələbələr üçün biz yazılı imtahanları şifahi şəkildə keçiririk. Test şəklində imtahan vermək istədikdə isə həmin tələbə üçün onların könüllü təşkilatından könüllü bir nəfər təyin edilir. Könüllü testi oxuyur, görmə məhdudiyyətli tələbə isə cavabını deyir". ATM 1-də başqa bir iştirakçı qeyd edir ki, SİM tələbələr üçün mərkəzdə imtahanlar təşkil edilir və orada onlar özlərini daha rahat hiss edirlər , imtahanı da rahat verirlər (İştirakçı C, ATM 1). ATM 3-də inzibati heyət üzvü imtahanların SİM tələbələr üçün spesifik

təşkil edildiyini qeyd edir. İmtahanlar sağlamlıq imkanları nəzərə alınaraq seçdiyi imtahan formaları tətbiq edilir (İştirakçı E, ATM 3).

İştirakçıların tələbələrə sosial-psixoloji dəstəklə bağlı fikirləri alınmışdır: ATM 4 -də akademik heyət üzvü özünün SİM tələbələrə digərləri ilə bərabər şəkildə yanaşmasından, onları dinlədiyindən bəhs edir (İştirakçı G, ATM 4). "İştirakçı A" SİM tələbələrə dəstəklə bağlı bu fikirləri qeyd edir: "SİM tələbələrin maddi rifahının yaxşılaşdırılması məqsədilə bağlı öz istəkləri olduğu təqdirdə universitet, həmkarlar ittifaqının xətti ilə onlara dəstək verir. "İştirakçı B" qeyd edir: "Təklifimiz üzrə universitetdə psixoloji dəstək mərkəzi yaradılıb. Sadəcə həssas kateqoriyanın tələbələri ilə işləyən mərkəzdir. Sadəcə tələbələr deyil, müəllimlər də iştirak edə bilir". Digər bir iştirakçı, ali təhsil müəssisəsinə birinci və SİM tələbələr qəbul olur və həmin tələbələrə qeyri-akademik tərəfdən dəstək olduğunu vurğulayır. ATM 3-də "İştirakçı F" qeyd edir: "Biz uşaqların sosiallaşması məsələsinə böyük diqqət yetirəcəyik ki, insan gərək özü sosiallaşa bilsin ki, qarşısında olanın da sosiallaşdırma istiqamətini bilməlidir. Sosial pedaqogika fənnimiz var və həmin fənn onların cəmiyyətdə sosiallaşmasının yollarını və formalarını göstərir və tələbələrə həmin sosial pedaqogika fənni tədris edilir". Sosial- psixoloji dəstəklə bağlı digər iştirakçıların da müxtəlif fikirlər bildiriblər. ATM 3-də SİM tələbələrin yaradıcı, innovativ düşüncələrinin məhsulu olan əsərlərinin sərgisini keçirilib. Bunun SİM tələbələrin faydasına töhfə verəcəyi qeyd olunub. Tələbələr üçün əmək yarmarkaları keçirilir. Müxtəlif əmək yarmarkalarında SİM tələbələr və məzunlar da iştirak edirlər. Öz CV-lərini təqdim edirlər və s. Eyni zamanda master klaslar da keçirilir. Bəzi tələblərə əl işləri öyrədilir. "İştirakçı I" qeyd edir: "Biz nəzəriyyəçilərik, orada mən pedaqogika dərsi deyirəm, sosial pedaqogika dərsi deyirəm amma adaptiv fakültə tamam başqadır, onlar üçün rehabilitasiya xidmətlərimiz var. Adaptiv fakültəni bitirənlər tibbi rehabilitasiya yox, pedaqoji rehabilitasiya xidməti verə biləcəklər" (İştirakçı I).

**Əməkdaşlıq**

Əməkdaşlıq adlı məzmun istiqaməti əsasında formalaşmış kateqoriya, kod, kodun tezliyi, ATM kodu və sitatlar cədvəl 6-da verilib.

**Cədvəl 6. Əməkdaşlıq**

| Kateqoriya | Kod | Kodun tezliyi | ATM kodu | Sitat |
|---|---|---|---|---|
| Universitet daxilində əməkdaşlıq | Inklüziv şöbə ilə əməkdaşlıq Universitet daxilində əməkdaşlıq | 3 | ATM 1 | "Burada bizim öhdəliyimiz universitetdəki inklüziv təhsil mərkəzi ilə sıx əməkdaşlıq etməkdir. Biz göndəririk məlumatı oraya, onlar da baxırlar, əgər doğrudan da tələbələr oraya uyğundursa onlarla iş aparılır" (İştirakçı C) . |
| | Pedaqogika və psixologiya kafedrasının birgə fəaliyyəti | 2 | ATM 3 | "Psixologiya kafedrası bizə köməklik göstərir, biz onlardan yardım alırıq. Biz də özümüz gücümüz çatan qədər vəsaitlarimizi hazır edirik, onlara köməklik göstəririk" (İştirakçı F) |
| Universitet xaricində əməkdaşlıq | Təşkilatlarla əməkdaşlıq | 4 | ATM 1 ATM 5 | " Regionlarda gənclərin inkluziv təhsilə cəlb edilməsiilə bağlı araşdırmalar aparırıq, ordakı təşkilatlarla bir işləyirik. Orda xüsusi məktəblər var, onlarla işləyirik. Biraz pandemiyadan sonra zəifləmişdi bu iş amma indi daha da aktivləşdirdik. İnkluziv sahədə təcrübənin təşkil edilmi-biz öz təcrübəmizi yaymaq istəyirik" (İştirakçı B) . |

Əldə edilən tapıntılardan biri inklüziv təhsilə dəstək məqsədli qurulan əməkdaşlıqlardır. Bura həm universitet daxilində əməkdaşlıq, həm də universitetdən kənar əməkdaşlıq kateqoriyaları daxildir.

"İştirakçı I " qeyd edir: "Universitetdə bir komanda şəklində fəaliyyət göstəririk. Həm reabitoloq var, həm psixoloq var, həm tibb məntəqəsi. Lazım olacaq bölmələr və ya şöbələr bir işçi qrupu şəklində cəmlənib". Universitet daxilində əməkdaşlıqlarla əlaqədar ATM 1-də inzibati heyət üzvü qeyd edir ki, universitet daxilində psixoloji mərkəzlə və inklüziv mərkəzlə birgə fəaliyyətdədirlər. Burada onların öhdəliyi universitetdəki inklüziv mərkəzlə sıx əməkdaşlıq etməkdir (İştirakçı A, ATM 1). "İştirakçı F" qeyd edir: "Bilavasitə bu psixologiyanin problemidir, böyük problemidir. Onlar bizə köməklik göstərir, biz onlardan

yardım alırıq. Biz də özümüz gücümüz çatan qədər vəsaitlarimizi hazır edirik , onlara köməklik göstəririk". Psixologiya və pedaqogika kafedrası birgə fəaliyyət göstərirlər, bir-birlərinə köməklik edirlər, vəsaitlərini hazırlayırlar.

Daha yaxşı şərait yaratmaq üçün bəzən müxtəlif şirkətlərlə əməkdaşlıqlar qurulur. "İştirakçı B" edilən əməkdaşlıqlar haqqında bəhs edir:

Regionlarda gənclərin inklüziv təhsilə cəlb edilməsi ilə bağlı araşdırmalar aparırıq, oradakı təşkilatlarla bir işləyirik. Orda xüsusi məktəblər var, onlarla işləyirik. Biraz pandemiyadan sonra zəifləmişdi bu iş amma indi daha da aktivləşdirdik. İnkluziv sahədə təcrübənin təşkil edilməsi-biz öz təcrübəmizi yaymaq istəyirik. Həm də qeyri hökumət təşkilatları ilə əməkdaşlıq edirik.

**Digər**

Digər adlı məzmun istiqaməti əsasında formalaşmış kateqoriya, kod, kodun tezliyi, ATM kodu və sitatlar cədvəl 7-də verilib.

**Cədvəl 7. Digər**

| Kateqoriya | Kod | Kodun tezliyi | ATM kodu | Sitat |
|---|---|---|---|---|
| Motivasiya | SİM tələbələrin dərslərə marağı | 4 | ATM 1<br>ATM 5 | "SİM tələbələrin özlərinin çox istəkli olmaqları,araşdırmaqları, yaxından iştirak etmək istəmələri bir keyfiyyət göstəricisidir" (İştirakçı İ) . |

Araşdırma nəticəsində ortaya çıxan digər bir tapıntı isə motivasiya ilə bağlıdır, burada iştirakçılar SİM tələbə və işçi heyətin öz işinə, dərslərə marağının, motivasiyasının daha yüksək olduğunu qeyd ediblər.

ATM 5-də inzibati heyət üzvü inklüziv təhsilin bütün tələbələrə yaxşı təsir etdiyini , SİM tələbələrin sosiallaşmağına, akademik göstəricilərin yüksəlməsinə müsbət təsir etdiyini vurğulayır. İştirakçı "I" qeyd edir ki, tələbələr də hər zaman araşdırmağa çox həvəs göstərirlər,

maraqlanırlar, öyrənməyə həvəslidirlər. SİM tələbələrin özlərinin çox istəkli olmaqları, araşdırmaqları, yaxından iştirak etmək istəmələri bir keyfiyyət göstəricisidir.

# V FƏSİL
# MÜZAKİRƏ VƏ NƏTİCƏ

Azərbaycan Respublikasının SİM şəxslərin təhsili haqqında qanununa əsasən SİM şəxslər, onların təhsili üçün şərait yaradılmış ümumi təyinatlı təhsil (sağlam şəxslərin təhsili üçün yaradılmış təhsil müəssisəsi) müəssisələrində təhsil almaq hüququna malikdirlər. Həmçinin, "təhsil müəssisəsində psixoloji-pedaqoji və tibbi göstərişlərə (əks göstərişlərə) uyğun təhsil almaq üçün lazımi xüsusi şərait varsa, həmin müəssisədə sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsil təşkil edilir" (Azərbaycan Respublikasının Milli Məclisi, 2001).

Ali təhsil pilləsində inklüziv təhsilin təşkili vəziyyətini öyrənmək məqsədilə ali məktəblərdə çalışan akademik və inzibati heyət ilə müsahibələr aparılmışdır. Ümumi təhlil nəticəsində, SİM tələbələrin fəaliyyətini dəstəkləyən, akademik resusrslar infrastrukturdan məsul inzibati strukturlar və inklüziv təhsili fənn olaraq tədris edən akademik strukturların mövcud olduğu ortaya çıxdı. Aydın olur ki, ATM-lərdə inklüziv təhsil fərqli formalarda təşkil olunub. Müsahibədə iştirak edən beş universitetə baxanda müşahidə edirik ki, onları akademik və inzibati struktur şöbələrin mövcudluğuna görə fərqli tiplərə aid edə bilərik.

Akademik və inzibati strukturların mövcudluğu bu ATM-lərdə inklüziv təhsilə yanaşmada müəyyən struktur və təşkilati resursların sərf olunduğunu deməyə imkan verir. Bunun əsasında inklüziv təhsilə yanaşmada 3 tip müəyyən etmək olar. Cədvəl 4-də tiplər və onların akademik və inzibati struktur üzrə bölgüsü göstərilir. Həmçinin tipləri səciyyələndirən xüsusiyyətləri cədvəl 4-də göstərilir.

**Cədvəl 4. İnklüziv təhsilə yanaşmanın tipologiyası**

| Tip | ATM | Səciyyəvi xüsusiyyətlər |
|---|---|---|

| | | |
|---|---|---|
| Tip 1 (Akademik, İnzibati) | 1, 4 | İnklüziv təhsilin fənn kimi tədrisi və SİM tələbələr, işçilərlə işləmək üçün akademik və inzibati struktur şöbələrin olması |
| Tip 2 (Akademik) | 3, 5 | İnklüziv təhsilin fənn olaraq tədrisinin həyata keçirilməsi üçün akademik strukturun mövcudluğu |
| Tip 3 (Heç biri) | 2 | İnklüziv təhsil mühitində SİM tələbələrlə məşğul olan işçi olsa belə, akademik və ya inzibati strukturların yoxluğu |

Birinci tipdə həm akademik şöbə, həm də inzibati şöbə və ya struktur var. Akademik struktur ondan ibarətdir ki, burada inklüziv təhsillə bağlı fənlər tədris olunur, inzibati şöbə isə bütün SİM tələbələr, işçilər və akademik heyətlə işləyir, onların akademik və peşəkar inkişafları üçün işlər görür və onlara dəstək olur. Qeyd edilən tipə ATM 1 və ATM 4-ü aid etmək olar, hansı ki, orada həm inzibati, həm də akademik struktur şöbə mövcuddur. Ancaq müsahibə zamanı ATM 4-də inzibati şöbədə fəaliyyət göstərməsi üçün məsul şəxs olmadığından vəzifə vakanta verilmişdi. Belə olduğu halda şöbənin fəaliyyətini məhdud hesab etmək olar.

İkinci tipə daxil olan universitetlərdə isə yalnız akademik struktur var. İnzibati şöbə olmasa da müəllimlər həmin universitetlərdə təhsil alan SİM tələbələrə dəstək göstərirlər. Müsahibə aparılan universitetlər içində ATM 3 və ATM 5 ikinci tipə daxildir. ATM 2-də isə nə akademik, nə də inzibati struktur şöbə fəaliyyət göstərdiyi üçün tip 4-ə daxildir. ATM 2-də akademik kontekstdə fənn olaraq tədris yoxdur və sadəcə bir inzibati şəxs fəaliyyət göstərir. Ayrıca inzibati şöbə mövcud deyil.

Əldə edilən tapıntılara əsasən universitetlər tərəfindən inklüziv təhsildə keyfiyyətin ölçülməsi təşkil edilən tədbirlərin və qəbul olan SİM tələbələrin sayı ilə ölçülsə də, digər universitetlərdə bunu tələbələrin sosial rifahı, universiteti bitirdikdən sonra nə dərəcədə özlərinə iş tapa bilmələri, onlara yaradılan şəraitlə ölçülür. Bu isə bizə həmin universitetlərdə

inklüziv təhsillə bağlı inzibati struktur bölmənin mövcudluğundan xəbər verir. Bu nəticə ilə ATM 1-dən əldə edilən tapıntılar üst-üstə düşür. ATM 4-də SİM tələblərin əldə etdikləri nailiyyətlər, onların fəaliyyəti keyfiyyət göstəricisi olaraq qeyd edilib. ATM 2 , 3 və 5-də tələbələrə diqqət və dəstək göstərildiyi bildirilsə də, keyfiyyət göstəricisi kimi sadəcə qəbul olan tələbə sayı və təşkil olunan tədbirlərin sayını qeyd ediblər.

Valideynlərin inklüziv təhsilə münasibətini öyrənmək üçün ədəbiyyat təhlili üzərindən aparılan bir araşdırmada hər nə qədər inklüziv təhsilin təşkili və xidmətlərin keyfiyyətinə görə narahat olan valideynlər olsa da, valideynlərin böyük əksəriyyətinin inklüziv təhsilə münasibətinin müsbət yöndə olduğu nəticəsinə gəlinmişdir (de Boer və dig., 2010). Bu araşdırmanın əksinə, ATM 2, ATM3 və ATM 5-də çalışan iştirakçılar valideynlərin uşaqlarını gizlətməyə çalışması, inklüziv təhsilə mənfi münasibət bəsləməsi kimi fikirlər qeyd ediblər.

Universal Öyrənmə Dizaynının tətbiqində qarşılaşdığımız maneələri bu araşdırmada da görürük. Kadr çatışmazlığı və inklüziv təhsilin xüsusi metodikasının olmamasından bəhs edən ATM 3 və ATM 5 iştirakçıları inklüziv təhsili təşkil etməkdə çətinliklərlə üzləşdiyini göstərir. Bunun nəticəsində fərdi yanaşma olmaması, tələbələrin ehtiyaclarının qarşılanmaması onlara mənfi təsir göstərir. İnklüziv təhsil tələb edir ki, hər bir tələbəyə dəstək göstərilməli, bunun üçün onların fərdi ehtiyacları diqqətə alınmalı, o cümlədən xüsusi metodika üzərində işlənməlidir, xüsusi tədris planı tərtib edilməlidir (Priyadharsini və Mary, 2024).

Uğurlu inklüziv təhsil təmin etmək üçün müyəssərlik əsas şərtlərdən biridir. 2016-cı ildə "Vətəndaş Cəmiyyəti – Media – Dövlət və Özəl sektorun Əməkdaşlığı ilə Azərbaycanda Hərəkət İmkanları Məhdud İnsanların Hüquqlarının Müdafiəsi və Yaşam Şərtlərinin Yaxşılaşdırılması" layihəsi çərçivəsində hazırlanmış tədqiqatda müyəssər infrastrukturun olmadığı qənaətinə gəlinmişdi. Bu araşdırmada tapıntılar fiziki müyəssərliyin qismən təmin olunduğunu deyir. Rampa və liftlərin olduğunu, müəyyən şərait yaradıldığı deyilsə də,

iştirakçıların ifadə etdiyinə görə bunlar hər yerdə deyil, müəyyən yerlərdə mövcuddur. Bu da inklüziv təhsildə müyəssərliyin qismən təmin olunduğunu göstərir. Müyəssərliklə bağlı ən çox kodlara ATM 1, ATM 4 və ATM 5-də rast gəlinir.

ATM 1-də SİM tələbələrin təhsil alması üçün lazım olan fərdi yanaşma və akademik resurslar tam təmin edilib. ATM 4-də və 5-də akademik resurslarla məhdud şəkildə təmin olunduğu aydın olur. ATM 3-də isə akademik resursların yalnız inklüziv təhsil fənnini tədris üçün hazırlanan materiallarından ibarət olduğu məlumdur. Bu hal tipologiyalarla etdiyimiz bölgünü dəstəkləyir.

**Məhdudiyyətlər**

Keyfiyyət araşdırmalarında seçmə sayı kiçik olur. Odur ki, ATM-lərdə fəaliyyət göstərən bütün idarə heyəti və akademik heyət ilə müsahibə aparmaq mümkün olmadı. Seçmə sayının kiçik olması bu araşdırmanın nəticələrini ümumiləşdirməyə və Azərbaycandakı bütün ATM-lərə aid edilməsinə imkan vermir.

**Nəticə**

ATM-lərdə SİM tələblər üçün inklüziv təhsil qismən təşkil olunub. Tam təşkili üçün müəyyən çətinlik və maneələrin aradan qaldırılmasına ehtiyac var. SİM tələbələrin təhsil alması və SİM fəaliyyətini yaxından izləyən inzibati strukturlar və akademik strukturların mövcudluğu onların təhsili üçün müəyyən resurslar sərf edildiyini deməyə imkan verir.

İnklüziv təhsilin təşkilində inzibati struktur mövcudluğu tələbələrin fəaliyyətini rahatlaşdırır. Maneələr və çətinliklər məzmun istiqaməti ilə əlaqəli gəldiyimiz nəticə odur ki , kadr çatızmazlığı inklüziv təhsilin təşkilində əsas problemlərdəndir. Burada həm də akademik heyətin SİM tələbələrlə işləmək istəməməsi elə inklüziv təhsili qəbul etmədiyi mənasına gəlir. Belə halda onlar inklüziv təhsildə tədrisin keyfiyyətinin artırılması üçün addım atmır, təlimlərdən və müxtəlif inkişaf proqramlarından keçmək istəmirlər.

SİM tələblərin artdığı bir dövrdə ali təhsil müəssisələrində inklüziv təhsilin təşkilinə xüsusi diqqət ayırmaq önəmlidir. Inzibati strukturun mövcudluğu sim tələbələrin işini nisbətən rahatlaşdırıb. İmtahanların təşkili, resursların əlçaatanlığı, karyera dəstəyi, emosional və psixoloji dəstəyin təşkil edilməsi, istedadlı SİM tələbələrin bacarıqlarının dəyərləndirilməsi cəhətdən inzibati strukturların mövcud olması tələbələrin işini daha da rahatlaşdırıb. Fiziki müyəssərlik tam deyil, universitetlərin yalnız müəyyən hissələrində təmin edilib. Müəllimlərin, valideynlərin ümumilikdə cəmiyyətin düşüncələri inklüziv təhsillə bağlı hələ də tam müsbət yöndə formalaşmayıb.

Bu araşdırmada iştirak etməyən akkreditasiya hesabatından keçmiş digər universitetlərdə inklüziv təhsilin təşkilini öyrənmək üçün araşdırma aparmağı təklif etmək olar.

# ƏDƏBİYYAT SİYAHISI

Alasuutari, H. K., Niaz, L., & D Angelo, S. M. (2024). Pathways to Inclusion and Equity: Disability Inclusion in Education-Inclusive Education Approach Paper. https://hdl.handle.net/10986/42542

Alexander, B., Ashford-Rowe, K., Barajas-Murph, N., Dobbin, G., Knott, J., McCormack, M., & Weber, N. (2019). *Horizon report 2019 higher education edition* (pp. 3–41). EDU19. https://www.learntechlib.org/p/208644/

Allahverdieva, V. (2020). Steps taken by Azerbaijan on the path of inclusive education. In 55th International Scientific Conference on Economic and Social Development (4(4), pp. 385–389). https://www.researchgate.net/publication/349641268

Awang-Hashim, Rosna, Amrita Kaur, and Nena P. Valdez. 2019. “Strategizing Inclusivity in Teaching Diverse Learners in Higher Education.” Malaysian Journal of Learning and Instruction 16 (1): 105–128. https://doi.org/10.32890/mjli2019.16.1.5.

Aydoğan, A. (2019). Yüksek öğrenim kurumları engelli öğrenci birimlerinin işlerliği üzerine bir değerlendirme (Master's thesis, Ankara Universitesi (Turkey)).

Aytaş, H. (2019). From the eye of faculty members with disability: a phenomenological study of faculty membersexperience of working life in Turkish higher education (master’s thesis, Middle East Technical University). https://hdl.handle.net/11511/27985

Bloomberg, L. D., & Volpe, M. (2008).  Completing your qualitative dissertation: A roadmap from beginning to end. SAGE Publications, Inc., https://doi.org/10.4135/9781452226613

Celina McEwen, Beate Mueller, Franziska Trede, Ben Archer & Michaela Zappia (2025) Advancing inclusive practices in higher education: possibilities and limitations of a social justice professional development course, Studies in Continuing Education, 47:2, 457-473, https://doi.org/10.1080/0158037X.2024.2417072

Coombs, H. (2022). Case Study Research Defined [White Paper]. Southern Utah University. https://doi.org/10.5281/ZENODO.7604301

Corbin, J., & Strauss, A. (2008). Basics of qualitative research: Techniques and procedures for developing grounded theory (3rd ed.). Sage publications, Inc. https://doi.org/10.4135/9781452230153

Creswell, J. W. (2012). Educational research: Planning, conducting, and evaluating quantitative and qualitative research (4th ed.). Boston, MA: Pearson.

Dalton, E., Mckenzie, J., & Kahonde, C. (2012). The implementation of inclusive education in South Africa: Reflections arising from a workshop for teachers and therapists to introduce Universal Design for Learning. African Journal of Disability, 1(1), 7 pages. doi:https://doi.org/10.4102/ajod.v1i1.13

DeLuca, C. (2013). Toward an Interdisciplinary Framework for Educational Inclusivity. Canadian Journal of Education / Revue Canadienne de l'éducation, 36(1), 305–348. http://www.jstor.org/stable/canajeducrevucan.36.1.305

Azərbaycan Respublikasının Milli Məclisi. (2001, 5 iyun). *Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında* Qanun, № 136-IIQ. Retrieved from https://e-qanun.az/framework/4353

E-Qanun [E-Law]. (2013). Decree of the President of the Republic of Azerbaijan about approval of the "State Strategy for the development of education in the Republic of Azerbaijan".

Estanqueiro, João Pedro do Vale. 2014. "Representações sociais de estudantes universitários acerca de pessoas com deficiência mental e sua integração socioprofissional." [Social Representations of University Students about Individuals with Mental Disabilities and

their Socio-Professional Integration.]Master thesis, Universidade de Coimbra. https://hdl.handle.net/10316/25644

Fern´andez Batanero, J. M., Montenegro Rueda, M., Fern´andez Cerero, J., & García Martínez, I. (2022). Assistive technology for the inclusion of students with disabilities: A systematic review. *Educational Technology Research and Development, 70*, 1911–1930. https://doi.org/10.1007/s11423-022-10127-7

Florian, L. (2014). What counts as evidence of inclusive education? European Journal of Special Needs Education, 29(3), 286–294. https://doi.org/10.1080/08856257.2014.933551

Fourie, M. (1999). Institutional transformation at South African universities: Implications for academic staff. Higher Education, 38(3), 275-290.

Gonçalves, Inês, and Paulo Cardoso. 2010. "Percepção de barreiras da carreira: estudo com estudantes universitários com incapacidade." [Perception of Career Barriers: Study with University Students with Disabilities.] INFAD Revista de Psicologia/International Journal of Developmental and Educational Psychology, XX 1 (4): 495–503 http://hdl.handle.net/10174/2515

Hardy, I., & Woodcock, S. (2014). Inclusive education policies: discourses of difference, diversity and deficit. International Journal of Inclusive Education, *19*(2), 141–164. https://doi.org/10.1080/13603116.2014.908965

Jardinez, M. J., & Natividad, L. R. (2024). The Advantages and Challenges of Inclusive Education: Striving for Equity in the Classroom. Shanlax International Journal of Education, 12(2), 57-65. DOI: https://doi.org/10.34293/ education.v12i2.7182

Jones, J. L., Jones, K. A., & Vermette, P. J. (2011). Planning learning experiences in the inclusive classroom: Implementing the three core UDL principles to motivate, challenge and engage all learners. *Electronic Journal for Inclusive Education*, *2*(7), 6.

Kalogiannakis, M., Papadakis, S., & Zourmpakis, A.-I. (2021). Gamification in Science Education. A Systematic Review of the Literature. Education Sciences, 11(1), 22. https://doi.org/10.3390/educsci11010022

Khandokar Tazina Islam, M. J. (2024). Inclusive Higher Educational Opportunity and Environments to Achieve SDG4 in Bangladesh: Lessons from Japan. International Journal of Educational Research Open, 1-11. https://doi.org/10.1016/j.ijedro.2023.100317

Kirschner, S. R. (2015). Inclusive education. IN: W. George Scarlett (Ed.) Sage Encyclopedia of Classroom Management: Sage.

Kreber, C. (2016). Educating for Civic mindedness: Nurturing authentic professional identities through transformative higher education (1st ed.). Routledge. https://doi.org/10.4324/9781315559872

Lockmun-Bissessur, V. N., Samy, M., & Peeroo, S. (2024). Inclusive education in higher education institutions: a comprehensive review of key components and framework for implementation. *Journal of Business and Social Sciences*, *2024*.

Looi, Chee-Kit & Sun, Daner & Seow, Peter & Chia, Gean. (2014). Enacting a technology-based science curriculum across a grade level: The journey of teachers' appropriation. Computers & Education. 71. 222–236.

Mikailova, U., Ismayilova, A., Karimova, Y., Isazade, U., Behbudov, R., Agayev, Y., & Aliyeva, N. (2009). Education of children with disabilities in Azerbaijan: Barriers and opportunities. Human Rights Education in Asian Schools, 12, 107–128. https://www.hurights.or.jp/archives/ pdf/education12/hreas-12-11-azerbaijan.pdf

Mikayilova, U. (2019). Inclusive education reform/s in Azerbaijan: An attempt at critical policy analysis. Azerbaijan School, 688(3), 39–51.
https://doi.org/10.29228/edu.29

Mikayilova, U.T., Orujova, L. and Babayeva, U. (2023), "Status of Inclusive Education in Azerbaijan", Lane, D., Catania, N. and Semon, S. (Ed.) Progress Toward Agenda 2030 (International Perspectives on Inclusive Education, Vol. 21), Emerald Publishing Limited, Leeds, pp. 121-137. https://doi.org/10.1108/S1479-363620230000021009

Moriña, A. (2016). Inclusive education in higher education: challenges and opportunities. European Journal of Special Needs Education, 32(1), 3–17. https://doi.org/10.1080/08856257.2016.1254964

Morina, A., & Carballo, R. (2017). The impact of a faculty training program on inclusive education and disability. Evaluation and Program Planning*, 65*, 77–83.

Naylor, R., & Mifsud, N. (2019). Structural inequality in higher education: Creating institutional cultures that enable all students. Perth: National Centre for Student Equity in Higher Education. https://doi.org/10.1080/07294360.2019.1670143

Ní Chorcora, Eilís, Aibhín Bray, and Joanne Banks. 2023. "A Systematic Review of Widening Participation: Exploring the Effectiveness of Outreach Programmes for Students in Second- Level Schools." *Review of Education* 11 (2): 1–26. https://doi.org/10.1002/rev3.3406.

Palinkas, L. A., Horwitz, S. M., Green, C. A., Wisdom, J. P., Duan, N., & Hoagwood, K. (2015). Purposeful sampling for qualitative data collection and analysis in mixed method implementation research. Administration and policy in mental health and mental health services research, 42(5), 533-544.

Pelletier, K., Robert, J., Muscanell, N., McCormack, M., Reeves, J., Arbino, N., … Zimmern, J. (2023). EDUCAUSE horizon report, teaching and learning edition (Boulder, CO: EDUCAUSE, 2023). EDUCAUSE. https://library.educause.edu/resources/2023/3/2023-educause-horizon-report-teaching-and-learning-edition

Pitman, Tim. 2020. "'Profitable for the Country'. An Australian Historical Perspective of the Contested Purpose of Public Universities." Higher Education Research & Development 39 (1): 13–25. https://doi.org/10.1080/07294360.2019.1665627.

Priyadharsini, V & Mary, Sahaya. (2024). Universal Design for Learning (UDL) in Inclusive Education: Accelerating Learning for All. Shanlax International Journal of Arts, Science and Humanities. 11. 145-150. 10.34293/sijash.v11i4.7489.

Rao, Shaila. 2004. "Faculty Attitudes and Students with Disabilities in Higher Education: A Literature Review." College Student Journal 38 (2): 191–198

Reyes, J. I., Meneses, J., & Meli´an, E. (2022). A systematic review of academic interventions for students with disabilities in online higher education. European Journal of Special Needs Education, 37(4), 569–586. https://doi.org/10.1080/ 08856257.2021.1911525

Ruslin, Ruslin & Mashuri, Saepudin & Sarib, Muhammad & Alhabsyi, Firdiansyah & Syam, Hijrah. (2022). Semi-structured Interview: A Methodological Reflection on the Development of a Qualitative Research Instrument in Educational Studies Ruslin. Vol. 12. 22-29. https://doi.org/10.9790/7388-1201052229

Sánchez-Díaz, M. N., Perera, V. H., & Moriña, A. (2023). Analysis of the Voices of Faculty Members Carrying out Inclusive Practices Using ICT. Pedagogika, 146(2), 129–147. https://doi.org/10.15823/p.2022.146.7

Schoch, K. (2020). Case study research. Research design and methods: An applied guide for the scholar-practitioner, 31(1), 245-258.

Schostak, John. (2006). Interviewing and Representation in Qualitative Research Projects.

Sokal, L., & Katz, J. (2015). Oh, Canada: bridges and barriers to inclusion in Canadian schools. Support for learning, 30(1), 42-54. https://doi.org/10.1111/1467-9604.12078

Stambekovaa, A., Zhakipbekova, S., Tussubekova, K., Mazhinov, B., Shmidt, M., & Rymhanova A. (2022). The model of pre-university training of people with disabilities

in the system of inclusive higher education. World Journal on Educational Technology: Current Issues, 14(3), 671–681. https://doi.org/10.18844/wjet.v14i3.7274

Storey, L. (2007). Doing interpretative phenomenological analysis. Analysing qualitative data in psychology, 51, 64.

Stubbs, S. (2008). Inclusive education. Where there are few resources. Oslo, The Atlas Alliance Publ.

T. Talan The effect of mobile learning on learning performance: A meta-analysis study Educational Sciences: Theory and Practice, 20 (1) (2020), pp. 79-103

UNESCO (2017). A Guide for Ensuring Inclusion and Equity in Education. Paris: UNESCO. http://unesdoc.unesco.org/images/0024/002482/248254e.pdf

UNESCO. (2021). Reimagining our futures together: A new social contract for education. UNESCO. https://unesdoc.unesco.org/ark:/48223/pf0000379707.

UN (1989c) Convention on the Elimination of All Forms of Discrimination against Women, Article 10, c: www.un.org/womenwatch/daw/cedaw/text/econvention.htm

United Nations (UN). (2006). United Nations Convention on the Rights of Persons with Disabilities. https://www.un.org/disabilities/documents/convention/convention_accessible_pdf.pdf

United Nations Department of Economic and Social Affairs. (2024, June 11). Disability and development report 2024: Accelerating the realization of the sustainable development goals by, for, and with persons with disabilities. ReliefWeb.Availableonline:https://reliefweb.int/attachments/6608f12e-573f-4d2b-a732e51677e52df4/ee4caf1158756fff6474ad07e8bb9f06.pdf (accessed on 1 September 2024).

Valle-Flórez, R. E., de Caso Fuertes, A. M., Baelo, R., & García-Martín, S. (2021). Faculty of Education Professors' Perception about the Inclusion of University Students with

Disabilities. International journal of environmental research and public health, *18*(21), 11667. https://doi.org/10.3390/ijerph182111667

Williams Van Rooij, K. Zirkle Balancing pedagogy, student readiness and accessibility: A case study in collaborative online course development The Internet and Higher Education, 28 (2016), pp. 1-7, https://doi.org/10.1016/j.iheduc.2015.08.001

# Əlavələr

**Əlavə 1. Etik sözləşmə formu**

## Etik sözləşmə formu

**Tətqiqatçı: Türya Heybətova**

**Universitet: ADA Universiteti, təhsil üzrə menecment ixtisası.**

**Əlaqə nömrəsi: (050) 510 45 99**

**Elektron poçt: turyaheybatova@gmail.com**

Mən, ADA Universitetinin magistratura tələbəsi Türya Heybətova

Bu sənədin məqsədi sizə mənim tədqiqat layihəm və layihədə iştirakla bağlı məlumat verməkdir. Layihə ali məktəblərdə inklüziv təhsillə bağlıdır. Tədqiqatın məqsədi ali məktəblərdə inklüziv təhsilin təşkili vəziyyətini öyrənməkdir. Sizin bu sahədə fikirləriniz bir tədqiqatçı kimi mənim üçün dəyərlidir.

Müsahibə zamanı sizə suallar veriləcək və siz hər hansı suala cavab verib ya cavab verməməyi seçə bilərsiniz. Müsahibə təxminən 1 saat davam edəcək və müsahibə zamanı səs yazısı qeydə alınacaq və sonra yazıya köçürüləcək. Məlumat toplandıqdan sonra iştirakçıların adları kodlaşdırılmaqla iştirakçı kimliyi gizli saxlanılacaq. Təhlil olunan məlumatlar magistr tezisində istifadə ediləcək.

Bu araşdırmada iştirak tamamilə könüllüdür və sizin üçün hər hansı bir risk daşımır. İştirakınızı təsdiqləmək üçün bu etik sözləşmə formasını imzalamalı, həmçinin könüllü iştirakınızı şifahi şəkildə təsdiqləməlisiniz. Məxfiliyiniz kodlaşdırmadan istifadə etməklə qorunacaq. İstənilən vaxt tədqiqatdan geri çəkilməyi və araşdırmadan imtina etməyi seçə bilərsiniz.

Mən, ___________________________________, bu tədqiqat layihəsində iştirakımı təsdiqləyirəm.

İmza____________________________________

Mən, ___________________________________, tədqiqat üçün səs yazımın qeydə alınmasına icazə verirəm.

İmza____________________________________

**Əlavə 2. Müsahibə protokolu**

**Müsahibə protokolu**

Layihə: Ali təhsildə inklüziv təhsilin təşkili: Bakıdakı ATM-lərin nümunəsində keyfiyyət araşdırması

Müsahibə müddəti: 1 saat

Tarix:

Yer:

Müsahibə alan şəxs: Türya Heybətova

İştirakçı:

İştirakçının vəzifəsi:

"Ali təhsildə inklüziv təhsilin təşkili: Bakıdakı ATM-lərin nümunəsində keyfiyyət araşdırması" adlı mövzu magistr tezisi üçün araşdırdığım mövzudur, məqsəd universitetlərdə inklüziv təhsilin təşkili vəziyyətini öyrənməkdir. Qeyd etmək istərdim ki, iştirakçı kimliyi gizlədilməklə məxfilik qorunacaqdır. Müsahibə əsasında toplanmış məlumatlar təhlil edilərək magistr tezisində yer alacaqdır. Müsahibə təxminən 1 saat çəkəcək.

Suallar:

Giriş

1. Sizin bu ali təhsil müəssisəsində (ATM) inklüziv təhsillə bağlı rolunuz nədən ibarətdir?
2. Bu vəzifədə nə qədər müddətdir ki, çalışırsınız və bu müddət ərzində sizin ATM-də inklüziv təhsillə bağlı hansı dəyişikliklər müşahidə etmisiniz?
3. Sizin ATM-də inklüziv təhsildən məsul hansı struktur və vəzifələr mövcuddur və onların işi nədən ibarətdir?
4. Sizin ATM-də sağlamlıq imkanları məhdud olan tələbə, müəllim və ya işçi heyətin üzvləri varmı? Varsa, təxminən onların sayı neçə nəfərdir?
5. Ali təhsil pilləsində inklüziv təhsil dedikdə nə başa düşürsünüz və ya ali təhsildə inklüziv təhsili necə təsvir edərdiniz?

Əsas hissə

6. Çalışdığınız müəssisədə inklüziv təhsilin mövcud vəziyyəti ilə bağlı nə deyə bilərsiniz?
7. Sizcə, inklüziv təhsil tələbələrin akademik nailiyyətlərinə və sosial fəaliyyətlərinə necə təsir edir?
8. Universitetdə inklüziv təhsil siyasətində işçi heyət, tələbələr və digər maraqlı tərəflərin fikirləri nə dərəcədə əhəmiyyətlidir?
9. Sağlamlıq imkanları məhdud tələbələrə akademik, psixoloji və ya sosial dəstək necədir?
10. Çalışdığınız təhsil müəssisəsi hansı starategiyalar əsasında inklüziv təhsili təşkil edir?

Yekun hissə

11. İnklüziv təhsilin effektiv şəkildə təşkil edilməsində hansı maneələrlə qarşılaşırsınız?
12. Çalışdığınız universitetdə sağlamlıq imkanları məhdud tələbələrin tədris materiallarına əlçatanlığı nə dərəcədə təmin olunub?
13. İnklüziv təhsilin effektivliyini necə ölçürsünüz?
14. Bu müsahibə ərzində müzakirə etmədiyimiz amma inklüziv təhsillə bağlı vacib bildiyiniz hər hansı bir məsələ varmı? Varsa, bu nədir?